www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 sentyabr 2015-ci il Cümə № 201 (6229) Qiymәti 40 qәpik

**Xəbər**

## Milli Şura seçkiləri boykot qərarı verdi

yazısı səh.5-də

**Gündəm**

### Avropa Parlamenti Azərbaycana sanksiyalar tətbiq etməyə çağırdı



Səsverməyə qatılan 365 nəfərin 202-si hakimiyyəti tənqid edən qətnaməyə səs verib; rəsmi Bakının reaksiyası da sərt olacaq

yazısı səh.13-də

### İqtidar Fransanın dövlət telekanalını məhkəməyə verir

yazısı səh.6-da

### Kreml Bakıya qarşı "qamçı-kökə" siyasətini sərtləşdirir

yazısı səh.8-də

### Azərbaycanda kitabı zibilliyə atırlar-ekspertlər danışır

yazısı səh.11-də

### "Dervish Travel"dən haqqındakı ittihamlara cavab gəldi

yazısı səh.3-də

### Rusiya həm "sülh" deyir, həm silah verir...

yazısı səh.9-da

### Qarabağ qazilərindən Türkiyədəki əməliyyatlara dəstək

yazısı səh.5-də

### Valideynlərinin imtina etdiyi siyasi mühacir kimdir?

yazısı səh.3-də

### Səfər Əbiyevin müavininin məhkəməsi gələn həftəyə qaldı

yazısı səh.13-də

### Rayonlarımıza zirehli döyüş texnikası göndərildi

yazısı səh.12-də

### Həbsxanada məhbus məhbusu öldürdü

yazısı səh.15-də

### İlan zəhəri büdcəni zənginləşdirə bilər

yazısı səh.15-də

**Nazirin yaxın ətrafına aid "Transgeyt" şəhər nəqliyyatından çıxarıldı**

# ZİYA MƏMMƏDOVUN SUÇU NƏ: PUL VƏ...

Nazirin rəhbərlik etdiyi Voleybol Federasiyasının işçiləri 4 aydır məvacib ala bilmir; Cavid Qurbanov isə idmançıları maliyyələşdirməkdən imtina edib; Məmmədovların daha bir biznesi - Qubadakı "Rixos Quba" hoteli də əllərindən çıxıb

yazısı səh.7-də




## Məşhur şirkətin şöbə müdirinin sirli intiharı

Kredit borcuna görə həbs edilən şirkət prezidenti Fariz Muradovun yaxın adamı Arif Yusifov özünü niyə asıb; təsərrüfat xidmətinin rəisinin də həbsi gündəmə gəlibmiş...

yazısı səh.6-da



*Siyavuş Novruzov:*

### "Siyahını 1-2 günə açıqlayacağıq..."

yazısı səh.10-da



Hikmət Hacızadə

### Sabiq səfirdən "diplomat qiyamına" ilginc münasibət

yazısı səh.9-da



### Razi Nurullayev "Azadlıq"ın ittihamlarına sərt cavab verdi

yazısı səh.6-da

## Prezident Texniki-Humanitar Liseydəki vəziyyətlə tanış olub



**Prezident İlham Əliyev sentyabrın 10-da Bakının Nəsimi rayonundakı Texniki-Humanitar Liseydə görülən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlət başçısına məlumat verib. Prezident siniflərdə yaradılan şəraitlə tanış olub.**

## Nyu-Yorkda Putin-Obama görüşü planlaşdırılmır

**"Rusiya və ABŞ prezidentlərinin BMT Baş Assambleyasının iclası çərçivəsində görüşü hələlik planlaşdırılmır. Vaşinqton belə bir təşəbbüslə çıxış etməyib". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Qrafikdə belə görüş hələlik yoxdur. Əlbəttə ki, tərəflər iş qrafikinin uyğunluğunu nəzərdən keçirirlər. Əgər hər hansı bir təşəbbüs olsa, o zaman konkret iş görüləcək. Hələlik belə görüş planlaşdırılmayıb", - deyə o qeyd edib.

Kremlin mətbuat xidmətinin rəhbəri Ağ Evdən prezidentlərin görüşünün keçirilməsi ilə bağlı təklifin gəlmədiyini də vurğulayıb.

## Rusiya Ukrayna ilə sərhəddə hərbi baza tikir

**Rusiya Ukrayna ilə sərhəddə hərbi bazanın tikintisinə başlayır. APA-nın xəbərinə görə, bu barədə "Reuters" agentliyi məlumat yayıb. Məlumata görə, Rusiyanın dövlət qulluğu portalında bununla bağlı tender elan olunub.**

Bildirilir ki, 300 hektarlıq ərazini əhatə edəcək hərbi bazada 3,5 min hərbi qulluqçu üçün 9 yaşayış məntəqəsi tikiləcək.

Rusiya Müdafiə Nazirliyindən isə məsələ ilə bağlı hələlik heç bir şərh verilməyib.

## Rayon avtomobilləri üçün 1100 yerlik duracaqlar tikilir

**Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının 23 iyul 2015-ci il tarixli "Bakı şəhərində nəqliyyatın hərəkətinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlər haqqında" qərarına əsasən Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi paytaxtın cənub və şimal istiqamətlərindən giriş ərazilərə yaxın yerlərdə bütün zəruri şəraiti olan ödənişsiz duracaqların tikintisini başa çatdırmalı, sentyabrın 15-də istifadəyə verməlidir. Xəbərə görə, rayon avtomobilləri üçün 1100 yerlik duracaqlar tikilir.**

Baş nazirin müavini, Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının sədri Abid Şərifov sentyabrın 15-dən rayon qeydiyyatında olan avtomobillərin səhər saat 7:00-dan axşam saat 24:00-a qədər paytaxta buraxılmayacağını, bu avtomobillərin şəhərin cənub və şimal girişindəki duracaqlarda saxlanılacağını bildirib. Rayon qeydiyyatında olan avtomobillər gecə saat 24:00-dan səhər saat 7:00-a qədər Bakıya daxil ola bilərlər.

## Cizrədə 32 terrorçu məhv edilib

**Türkiyənin müvəqqəti seçki hökumətinin daxili işlər naziri Səlami Altınok Şırnak vilayətinin Cizrə qəsəbəsində aparılan antiterror əməliyyatı haqqında məlumat verib.**

APA-nın "milliyet.com.tr" saytına istinadən yaydığı xəbərə görə, S. Altınok Cizrədə komendant saatı elan olunduğunu xatırladıb: "Cizrədə aparılan əməliyyatlarda məqsəd terror aktlarına son qoyulması, minalanmış ərazilərin təmizlənməsi və dövlət hakimiyyətini bərqərar etmək məqsədi daşıyır. Təhlükəsizlik qüvvələrimiz mülki əhalinin zərər görməməsi üçün maksimum diqqət göstərir. Əməliyyatlar nəticəsində 800 kq partlayıcı maddə zərərsizləşdirilib, terrorçuların yollarda qazdığı 30 xəndək doldurulub. Qüvvələrimizə doğru 21 qumbaraatan mərmisi atılıb, 6 ədəd zirehli texnika sıradan çıxıb. 32 terrorçu məhv edilib. Cizrədəki əməliyyatları ən qısa müddətdə yekunlaşdırıb, küçəyə çıxma yasağını ləğv edəcəyik".

Qeyd edək ki, Cizrədə əməliyyatlar sentyabrın 4-də başlayıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Səfərbərlik Xidməti: "Çağırışa gəlməyənləri cəza gözləyir"

**"Hərbi vəzifəli dedikdə ehtiyata keçirilmiş Azərbaycan Respublikasının vətəndaşları nəzərdə tutulur. Hərbi vəzifəlilər ehtiyatda olduqları dövrdə hərbi təlim, hərbi yoxlama və xüsusi toplanışlara çağırılırlar.**




Səfərbərlik hazırlığının yoxlanılması məqsədilə hərbi vəzifəlilər həm də hərbi yoxlama toplanışlarına çağırılırlar. Səfərbərlik hazırlığı və səfərbərliklə əlaqədar üzərinə düşən vəzifələri yerinə yetirməyən vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Ehtiyatda olan hərbi vəzifəlilər hər an səfərbərlik hazırlığının yoxlanılması məqsədilə hərbi təlim toplanışlarına çağırılmağa hazır olmalıdırlar. Əsas məqsəd tələb olunan zaman çərçivəsində bu resursu yığmaqdır".

Bunu APA-nın sorğusuna cavab olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən bildiriblər.

Qeyd edilib ki, xidmət tərəfindən indiyə qədərki məşğələlərdə Silahlı Qüvvələrə təhkim olunmuş hərbi vəzifəlilərin xəbərdar edilməsi və praktiki toplanması təşkil edilib. Bu iş xidmət tərəfindən mütəmadi olaraq aparılıb.

**Xidmətdən bildiriblər ki, təlimə çağırılan şəxs iş yerinə bu haqda məlumat verməli və təlimdən qayıtdıqdan sonra müvafiq sənədləri iş yerinə təqdim etməlidir:** "Qanuna müvafiq olaraq səfərbərlik üzrə çağırış və müharibə dövründə sonrakı çağırışlar zamanı vətəndaşların toplanış məntəqələrinə, yaxud hərbi hissələrə vaxtında gəlməsinə mane olan təşkilatların rəhbərləri və digər vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Yəni vətəndaşdan başqa, təşkilatların üzərinə də vəzifələr qoyulur. Buna baxmayaraq, təşkilatlar hərbi vəzifəlilərin təlimdə olduğu dövrün maaşını ödəməlidirlər".

Xatırladaq ki, Komanda Qərargah Hərbi Oyunlarına ehtiyatdan çağırılan bəzi hərbi vəzifəlilərin xidmətə gecə saatlarında aparılması sosial şəbəkələrdə, sıravi insanlar arasında müəyyən müzakirələrə səbəb olub və suallar yaradıb.

## Bakı sirki köçəcək

**Bakı Dövlət Sirkinin yeni binasının tikilməsi üçün layihə hazırlanır. Mədəniyyət və Turizm Nazirliyi mətbuat xidmətinin rəhbəri Vüqar Şıxəmmədovun verdiyi məlumata görə, Bakı sirki üçün yeni torpaq sahəsinin ayrılması üçün müzakirə aparılır.**

"Bina tamamilə yeni görünüşdə, yeni layihə ilə tamaşaçıların istifadəsinə veriləcək. Lakin torpaq sahəsinin dəqiq hansı ərazidə olması hazırda dəqiqləşdirilir. Onun tamaşaçılar üçün əlverişli yerdə olması üzrə danışıqlar gedir" - deyə xidmət rəhbəri ANS PRESS-ə bildirib.

Bakı sirkinin mətbuat xidmətinin rəhbəri Mahir Hümbətov da sirkin problemlərinin olduğunu bildirdi. Onun sözlərinə görə, Bakı Dövlət Sirkinin gələcək taleyi üçün heç bir narahatlığa əsas yoxdur. Bununla bağlı zəruri olan bütün tədbirlər görülür.

Bir müddət əvvəl isə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev jurnalistlərə açıqlamasında sirkin köçürülməsi məsələsinin gündəmdə olduğunu bildirmişdi: "İndiki sirk binası fiziki cəhətdən qocalıb. Həm də sirkin yaşayış binalarının arasında yerləşməsi arzuolunmazdır. Bakı sürətlə inkişaf edir və bütün tikililər şəhərin görünüşünə uyğun olmalıdır. Buna görə sirkin köçürülmə məsələsi də bizim tərəfimizdən müzakirə olunur".



Yaşar Abışov

## Azərbaycan diasporunun lideri rüşvətlə tutuldu

**Ümumrusiya Azərbaycan Konqresinin Mordoviya şöbəsinin keçmiş rəhbəri Yaşar Abışov 6 il müddətinə həbs oluna bilər. Bu barədə Rusiya KİV-ləri məlumat yayıb. Yaşar Fəqan oğlu Abışov 2002-2007-ci illərdə Mordoviya prokurorunun baş köməkçisi olub. Bundan sonra pensiyaya çıxıb. Amma sonrakı hadisələrin də göstərdiyi kimi, əvvəlki işinin xüsusiyyətlərini və köhnə əlaqələrini unutmayıb.**

İstintaqla müəyyən edilib ki, Abışovun tanışı olan bir qadın mayın 16-da onunla "Maqnit" mağazasının yaxınlığında görüşüb. Qadın Abışovdan 2003-cü ildə qrup halında qarət maddəsi ilə həbs olunmuş bir nəfəri vaxtından əvvəl həbsdən buraxdırmaqda yardım göstərməyi xahiş edib.

Qadını diqqətlə dinləyən keçmiş prokuror fürsətdən istifadə edərək ona təklif olunmuş pulları ələ keçirmək qərarı verib. Məsələ burasındadır ki, Abışov bu məsələnin həllinə təsir etmək gücünə malik olmayıb. Buna baxmayaraq, o, qadına vəd edərək buna imkan olduğunu, lakin aidiyyəti adamlara 300 min rubl vermək lazım gəldiyini bildirib.

Bu görüşdən bir neçə gün sonra qadın Abışova elə həmin yerdə maşının içində 250 min rubl verib. Dövlət təhlükəsizlik xidmətinin əməkdaşları Azərbaycan diasporunun liderini elə pulqarışıq yaxalayıb. Onun üstündən rüşvət kimi aldığı 250 min rubl da daxil üst-üstə 330 min rubl aşkarlanaraq götürülüb.

## Bakıda maskalılar dəstəsi tutulub

**Bakıda maskalı dəstə üzvləri tutulub. Bakı Şəhər Baş Polis İdarəsindən verilən məlumata görə, Xəzər Rayon Polis İdarəsi cinayət-axtarış şöbəsi və 1-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 9-da saat 04:20 radələrində Şüvəlan qəsəbəsində 1946-cı il təvəllüdlü Şövkət Həşimova məxsus bağ evinə maskalanaraq daxil olan, vətəndaşa qarşı zor tətbiq etməklə quldurluq əməli törətməyə cəhd göstərməkdə şübhəli bilinən qəsəbə sakinləri - 1988-ci il təvəllüdlü Samid Tahirov, 1993-cü il təvəllüdlü Elnur Muradov və 1994-cü il təvəllüdlü Nahid Razıyev müəyyən olunaraq tutulublar.**

## Cüdo Federasiyasında yeni simalar

**Azərbaycan Cüdo Federasiyasının yeni vitse-prezidentləri təyin edilib.**

Federasiyanın yeni vitse-prezidentləri "Neftçi" İdman Sağlamlıq Mərkəzinin icraçı direktoru Sadıq Sadıqov, Olimpiya çempionu Elnur Məmmədli, SOCAR-ın vitse-prezidenti Mikayıl İsmayılov seçilib.

Cüdo üzrə beynəlxalq dərəcəli hakim Elman Babayev isə federasiyanın baş katibi təyin edilib.

Dünən keçirilən mətbuat konfransında Azərbaycan Cüdo Federasiyasının yeni prezidenti Rövnəq Abdullayev bildirib ki, məqsəd Azərbaycan cüdosundakı mövcud problemləri tezliklə aradan qaldırmaq, yaxşı nəticələr əldə etməkdir.

## 14 yaşlı uşağın qatili tapıldı

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyi son günlər baş verən iki qətllə bağlı açıqlama yayıb. Baş Prokurorluqdan "Qafqazinfo"ya verilən məlumata görə, avqustun 26-da Bakı şəhər sakini Əzizə Həsənovanın Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki yaşadığı evdə üzərində zorakılıq əlamətləri olan meyiti aşkar edilib.**

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb. İntensiv istintaq-əməliyyat tədbirləri ilə cinayətin Muxtar Qədirov və Rüfət İskəndərov tərəfindən törədilməsi müəyyən edilib və hər iki şəxs polis əməkdaşları tərəfindən yaxalanıb.

İstintaq zamanı onlar Əzizə Həsənovanın evinə quldurluq məqsədilə daxil olaraq qadını qətlə yetirdiklərini, sonra mənzildən 260 manat pul və 525 manat dəyərində qızıl-zinət əşyalarını götürdüklərini etiraf ediblər.

Bundan başqa, sentyabrın 8-də Kürdəmir rayonunun Ərəbqubalı kəndində yaşayan Emin Eminova məxsus bağ sahəsində kənd sakini, 14 yaşlı İzzət Babayevin meyiti tapılıb.

"İsti iz"lərlə İ.Babayevin bir gün əvvəl həmkəndlisi Seyran Məmmədov tərəfindən şəxsi münasibətlər zəminində boğularaq qətlə yetirildiyi müəyyən edilib və o, şübhəli şəxs qismində tutulub.

Hazırda hər iki cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!



# Valideynlərinin imtina etdiyi siyasi mühacir kimdir?

**Müzəffər Baxış:** "Valideynin övladdan imtina etməsi qanunvericilikdə nəzərdə tutulmayıb"



Müzəffər Baxış

**Sabiq vicdan məhbusu, hazırda Hollandiyada mühacirətdə yaşayan Rəsul Mürsəlovun ailəsinin ondan imtina etməsi barədə xəbər vermişdik. İmtina ərizəsini gənc fəalın atası Maarif Mürsəlov yazıb. Müraciət Prezident Administrasiyasına, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Milli Təhlükəsizlik Nazirliyinə və Ombudsman Aparatına göndərilib.**

Bəyanatda bu sözlər yer alır: "Biz oğlumuz Rəsulun siyasi fəaliyyətini dəstəkləmir və ondan imtina etdiyimizi bəyan edirik. Bunu nəzərə almağınızı və Rəsul Mürsəlovu bundan sonra bizim ailə ilə əlaqələndirməməyinizi xahiş edirik".

Bəyanatdan sonra mətbuat və sosial şəbəkələrdə Mürsəlovlar ailəsinə haqq qazandıranlar da oldu, bəyanata qarşı çıxanlar da. Əsas ortaya atılan iddia isə müraciətin təzyiq yolu ilə yazdırılmasıdır. Çoxları hesab edir ki, R.Mürsəlovun xaricdəki siyasi fəaliyyəti hakimiyyətin qəzəbinə tuş gəlib və nəticədə onun ailəsi buna məcbur edilib. Qeyd edək ki, R.Mürsəlov sosial şəbəkələrdə və mətbuatda hakimiyyəti sərt tənqid edən yazıları ilə tanınır.

İndiyə qədər övladdan imtina kimi hallara demək olar ki, Azərbaycanda rast gəlinməyib. Buradan ortaya maraqlı bir sual çıxır: R.Mürsəlovun ailəsi ondan qanunla imtina edə bilərmi?

**Hüquqşünas Müzəffər Baxış qanunvericilikdə valideynin övladdan imtina etməsi prosedurunun nəzərdə tutulmadığını bildirdi:** "Konstitusiyanın 34-cü maddəsinə görə, uşaqları tərbiyə etmək və qayğısına qalmaq valideynin borcudur. Bu, konstitusion bir normadır, həm də valideynin hüququdur. Qanunda bu qayda tətbiq edilib. Azərbaycan qanunlarına görə, uşaq dedikdə 18 yaşına çatmayanlar nəzərdə tutulur. Konkret olaraq, qanunvericiliyimizdə valideynin övladdan imtina etməsi nəzərdə tutulmayıb. Valideynlikdən uzaqlaşdırıldıqda, yaxud hüquqları məhdudlaşdırıldıqda belə, övladlarının qayğısına qalmaq valideynin borcudur. Rəsul Mürsəlov 18 yaşından yuxarıdır. O, uşaq deyil. Tam yetkin bir insandır. Bu, valideynlərin vəziyyətdən çıxmaq üçün verdiyi bəyanatdır. Bunun heç bir hüququ əsası yoxdur. Qanunda da belə hal yoxdur. Çox təəssüf edirəm ki, ölkəmdə belə valideynlər var".

Sonda Rəsul Mürsəlovun siyasi fəaliyyətinə qısa nəzər salaq. Əvvəllər Rəsul Mürsəlov ADP-nın üzvü olub. 2012-ci il iyulun 18-də Balakəndə tutulub. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmədə təqsirli bilinərək, 1 il 6 ay müddətində azadlıqdan məhrum edilib. Həbsxanada AXCP-yə keçib. 2014-cü ilin yanvarında azadlığa çıxıb. Həmin ilin avqustunda barəsində 274 ( Dövlətə xəyanət) 178 (Dələduzluq) maddələri ilə cinayət işi açılıb. Bundan sonra gənc fəal ölkəni tərk edərək, Gürcüstandakı xarici səfirliklərin birinə sığınıb. Hazırda Hollandiyada mühacirətdə yaşayan R.Mürsəlov iki ay öncə üzvü olduğu AXCP-dən də istefa verib.

❑ **Cavanşir ABBASLI**

# "Dervish Travel"dən haqqındakı ittihamlara cavab gəldi

## Nadir Nadirov: "Müştəri özbaşına bizim onu yolladığımız hoteldən çıxıb gedirsə..."

**Qəzetimizin 5 sentyabr sayında "Turizm şirkəti vətəndaşı aldadıb" başlıqlı yazı dərc edilib. Yazıda Türkiyəyə istirahətə getmək istəyən Bakı şəhər sakini Tapdıq İmanov "Dervish Travel" şirkəti tərəfindən aldadıldığını iddia etmişdi. Şikayətçi istirahətinin sanki bir əzab olduğunu və pullarının batdığını bildirmişdi.**

**Yazı dərc edildikdən sonra "Dervish Travel" turizm şirkətinin direktoru Nadir Nadirov redaksiyamıza gələrək T.İmanovun dediklərinin əsassız olduğunu bildirib:** "Bizim şirkətimiz 10 ildir fəaliyyət göstərir. Turizm üzrə də 10 illik bir müddət az deyil. Biz müştərilərimiz arasında fərq qoymuruq. Tapdıq İmanov bizə zəng edəndə ilk sualı pulu bank köçürməsi vasitəsilə qəbul edib-etmədiyimiz haqda oldu. Bir çox turizm şirkətləri bunu qəbul etmədiyi halda, biz razılaşdıq. Tapdıq İmanov avqustun ortasında Bodrumda 1 həftəlik 5 ulduz hoteldə 5 nəfərlik ailə üzvləri ilə birlikdə istirahət etmək istədiyini bildirdi. Bilənlər bilir ki, bütün dünyada avqust ən bahalı vaxtdır. Əvvəlki aylara nisbətən avqustda biletlərin, hotellərin qiyməti 2-3 qat baha olur. Turpaketin qiymətinin 5 min manatdan artıq olmamasını istədi. Biz ona yalnız avqustun 16-da hotel və təyyarəyə yer olduğunu bildirdik. T.İmanov bu tarixlə razılaşdı və bron olunmasını xahiş etdi. Mən ona 5 min 250 manata "Royal Arena" və "Royal Asarlic" təklif etdim. Bu hotellərdə də standart otaqları məsləhət gördük. Standart otaqlar yan-yana olacaqdı. Bir otaqda iki böyük, bir balaca uşaq, digərində isə 2 böyük qalacaqdı. Mən Tapdıq İmanova "Royal Aserlic" hotelini məsləhət gördüm, amma o, "Royal Arena"nı istədiyini dedi. Biz də öz növbəmizdə Türkiyədə yerləşən və bizimlə əməkdaşlıq edən "Alyaska" şirkəti ilə əlaqə saxlayıb Bodrumda yerləşən "Royal Arena" hotelində iki standart nömrə bron etdik.

Turpaketi hazırlayıb verdik. Bu şəxs mənə bazar günü, avqustun 16-sı zəng etdi. Türkiyə saatı ilə haradasa 5-6 arası idi. Dedi ki, bizə verdikləri nömrə bir otaqlıdır. Bildirdim ki, hotelin qəbul şöbəsində desin ki, onun turpaketində iki standart nömrə var. Hotel nəyə görə standart nömrələr vermədiyini izah etməlidir. Onlara sonradan həmin hoteldə iki standart nömrə verilib. Dediyinə görə, həmin nömrələr camaşırxananın yanında yerləşib. Bu nömrələr də onun xoşuna gəlməyib. Tapdıq İmanov mənə bazar günü saat 19:30-da zəng etmişdi. Artıq Türkiyə vaxtı ilə saat 17:30 idi. İstənilən yerə gedəndə tur lider olur. Tur lider sizə ekskursiyalar haqqında məlumat verir və turistlərin problemlərini həll edir. Tur lider turistlərə onlarla əlaqə saxlaya bilmələri üçün telefon nömrəsi verir. Soruşdum ki, o nömrə sizdə varmı, dedi, hə. Dedim, həmin nömrələrə zəng etsin. "Alyaska" şirkətinin tur lideri Seymur adlı şəxsə zəng edib. Tapdıq İmanovun dediyinə görə, Seymur onlara bu işi həll etməyəcəyini deyib. Mən yenidən zəng etməyi məsləhət gördüm. Seymur işlədiyi "Alyaska" şirkəti ilə əlaqə saxladıqdan sonra şirkət tərəfindən hotelə zəng edilib və hotel Tapdıq İmanova nömrələrinin sabah dəyişəcəyini bildirib. Mənə zəng edib dedi ki, gün ərzində otaq dəyişilməsə, hoteli tərk edəcək. Ona hoteldən çıxmamağı söylədim və dedim ki, sabaha dəyişəcəklər, söz verilib. Bu adam heç kimə demədən hoteldən çıxıb hava limanına gedib. Dediyinə görə, Bakıya qayıtmaq istəsə də bilet tapa bilməyib. Özü bir mini hotel tapır və mənə zəng etmir. Həmin hoteldən Seymura zəng edərək "Royal Arena" hotelindən çıxdığını və ora qayıtmayacağını bildirib. "Alyaska" şirkətinin əməkdaşı olan Seymurdan ona başqa hotel tapmasını istəyib. Seymur bir neçə saatdan sonra T.İmanova zəng edərək ona "Amara" adlı otel tapdığını bildirib".

**N.Nadirovun sözlərinə görə, Tapdıq İmanov bilməli idi ki, yüksək sezon olanda 7 günlük hotel tutub və birinci günü qalıb çıxarsansa, sənin digər günlərinin pulunu qaytarılmır:** ""Alyaska" T.İmanova bildirib ki, "Royal Arena" hoteli sizdən 3 gecənin pulunu çıxacaq. Bu da normaldır. Qalan 4 gecənin qalmaq pulu "Amara" hotelinə keçir. Mən səhər, avqustun 17-si "Alyaska" şirkətinə zəng etdim ki, göndərdiyim T.İmanovun ailəsinin nömrələrini dəyişdirsinlər. Çünki hotel bir gün sonra nömrələrin dəyişəcəyinə söz vermişdi. Bu zaman bildim ki, onlar hoteli tərk ediblər. "Alyaska" şirkətindən bildirdilər ki, artıq onlara "Amara" adlı başqa hotel tapıblar və buna görə onlar əlavə 1700 dollar pul ödəyib. Tapdıq İmanova zəng etdim, soruşdum ki, hər şeyi ödəmişdiniz, otağınızı dəyişəcəkdilər, niyə başqa hotelə getmisiniz? Cavab verdi ki, həmin hoteldən xoşu gəlməyib. "Amara"ya əlavə 1700 dollar ödəyib".

**"Dervish Travel"ın direktoru N.Nadirov T.İmanovun Bakıya qayıtdıqdan sonra onun yanına gəldiyini dedi:** "10 gün keçdikdən sonra Tapdıq İmanov bizim ofisə gəldi. Dedi ki, mənə pul qaytarmalısınız. Nə qədər qaytarmalı olduğumuzu soruşdum. Dedi ki, nə qədər fikriniz varsa, o qədər də qaytarın. Mən də bildirdim ki, mən sizə heç bir məbləğ qaytarmamalıyam. O isə mənə 1700 dollar qaytarmalı olduğumu söylədi. Dedim ki, siz məndən "Royal Arena" hotelini, uçuşu, qarşılanmanı, sığortanı tələb etmişdiniz. "Dervish Travel" də tələblərinizin hamısını həyata keçirib. Onun yanında "Alyaska"nın direktoru Nizamiyə zəng etdim. Dedim ki, sizin "Amara" hotelə köçürdüyünüz müştərim məndən hotelə verdiyi 1700 dolları tələb edir. O da dedi ki, hoteli özü dəyişib, əlavə pulu da özü verib".

**N.Nadirov "Amara" hotelində T.İmanovun ailə üzvlərinin zəhərlənməsi iddiasına da aydınlıq gətirdi:** "Bu adam deyir, hoteldə zəhərlənmə olub, hotel karantinə düşüb. Amma bu, yalandır. Zəhərlənmə kütləvi deyil. Tapdıq İmanov 1700 dolları mənə yox, "Alyaska"ya verib. "Alyaska"nın direktoru da dedi ki, o pul bizə gəlməyib, pul hotelə verilib. Onu da qaytarmağa heç bir ixtiyarım yoxdur".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015

# Qarabağ qazilərindən Türkiyədəki əməliyyatlara dəstək

**Bir qrup Qarabağ qazisi Türkiyə hökumətinə müraciət edib. Müraciətdə bildirilir ki, son günlər qardaş ölkədə baş verənlər azərbaycanlı qaziləri də ağrıdıb və onlar bu mübarizə yolunda Türkiyəyə dəstək olmağa hazırdırlar: "Böyük türk milləti, sizə müraciət edirik. Bizi qatıldığınız müharibəyə aparın. Türkiyəyə uzanan əllər Azərbaycana uzanan əllərdir.**

Bu əlləri kəsmək üçün sizin yanınızda, sizinlə birlikdə olaq. Bu müharibədə şəhid olmaq, qanımızı dost və qardaş millət yolunda axıtmağa hazırıq. Az deyilik. Keçmişdə savaşmış heyətlər, OMON-çular, boz qurdçular və digərləri ilə birlikdə, sizinlə çiyin-çiyinə, mənfur düşmənə qarşı vuruşmaq arzusundayıq".

Azərbaycan qaziləri adından olunan bu müraciəti Vaqif Əlisoy və Əbuzər Əbilov imzalayıb.

**"Yeni Müsavat"a açıqlamasında V.Əlisoy bildirib ki, sözügedən müraciəti iki gün bundan qabaq hazırlayıblar. Qarabağ qaziləri adından hazırlanan müraciət Türkiyənin son günlərdə uğradığı hücumlara cavab və qardaş ölkəyə dəstək xarakteri daşıyır:** "Bu müraciət sosial şəbəkədə yayılandan sonra Türkiyənin köşə yazarlarından olan Cahid Kılıc mənimlə əlaqə saxladı və müraciəti yaymaq üçün icazə istədi. Biz də icazə verdik və müraciət Türkiyədə də yayıldı".

**Həmin müraciətə ölkədə daha iki qeyri-hökumət təşkilatı qoşulub. Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov məsələ ilə bağlı "Yeni Müsavat"a bildirib ki, onlar qardaş Türkiyədə baş verənləri narahatlıqla izləyirlər.** "Biz bir müddət əvvəl bir birlik də yaratmışdıq. Keçmiş döyüşçülər, komandirlər, sıravilər bir araya gəlib işçi qrup yaratmışıq-Qazilər İşçi Qrupu. Məqsədimiz də bu olub ki, ölkə rəhbərliyinə torpaqlarımızın işğaldan azad olunmasının vacibliyi ilə bağlı müraciət edək. Yəni bildirək ki, Qarabağın işğaldan azad olunması ancaq müharibə yolu ilə mümkündür. Müharibə variantına üstünlük verilməlidir. Danışıq yolları ilə bunun mümkünsüzlüyü bəllidir. Bu zaman ərzində ermənilərin tutduğu mövqe ondan xəbər verir ki, torpaqlar sülh yolu ilə geri qayıtmayacaq. Bu mövqedə olan işçi qrupu iki ay əvvəl yaradılıb. O vaxt Avropa Oyunları keçirildiyindən, biz bu müraciəti etmədik. İndi də düşünürük ki, müharibə yeganə yoldur torpaqları işğaldan azad etmək üçün. İndi edəcəyik. Görüşüb, yenidən dövlət başçısına müraciət etmək fikrindəyik Qarabağla bağlı. Əslində biz bir neçə QHT bir neçə dəfə belə müraciətlər ünvanlamışıq ki, Azərbaycan torpaqlarının geri qaytarılması ancaq müharibədən keçir. Aradan keçən müddət bunu sübut edib. Bizim Türkiyə ilə bağlı müraciətimiz də ən əsas mənəvi dəstəkdir. Türkiyə dövlətinə, türk qardaşlarımıza bildiririk ki, biz sizin yanınızdayıq. Sizin verdiyiniz şəhidlərə biz də üzülürük. Ancaq Türkiyə qüdrətli bir dövlətdir, belə sınaqlardan həmişə üzüağ çıxıb. Yenə də hər şey qaydasında olacaq, həmrəylik, sülh bərqərar olacaq. Türkiyənin elə bir ordusu, hərbi qüdrəti var ki, istənilən düşmən qarşısında dayanmağa və qalib gəlməyə qadirdirlər. Bu problemdən də qurtulacaqlar".

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı isə bildirib ki, bir müddət əvvəl onlar da təşkilat olaraq müraciətlərini göndəriblər və Türkiyəyə gedərək döyüşməyə hazırdırlar:** "Biz Türkiyənin dövlət başçısına QAT adından müraciət ünvanlamışıq, artıq səfirliyə təqdim edilib. Qarabağ döyüşündə iştirak edən döyüşçülər antiterror əməliyyatlarında iştirak etməyə hazırdırlar. Bu, öncə mənəvi dəstəkdir. Yəni birinci növbədə Türkiyədə başlanmış bu prosesə, hərbi əməliyyatlara dəstək veririk ki, düzgün yoldur, tərəddüd etməsinlər. Çünki terrorun kökünü kəsmək üçün radikal üsullardan istifadə olunmalıdır. Neçə illərin təcrübəsi onu göstərdi. Eyni zamanda işğalın aradan qaldırılması üçün müraciətimizdə vurğulayırıq ki, işğal Azərbaycan üçün də nümunədir. Yəni hərbi yolla, radikal addımlarla işğala son qoymaq olar. Fərdi qaydada da QAT-ın Qarabağda döyüşmüş üzvləri müraciət ediblər, Türkiyə səfirliyinə gedib döyüşmək istədiklərini onlara çatdırıblar. Əgər Türkiyənin qanunları imkan verərsə və yaxud onlar çağırış etsələr, Türkiyəyə gedəcəklər. Biz Türkiyəyə gedib döyüşməyə hazırıq".



**Etimad Əsədov:**
"Türkiyə dövlətinə, türk qardaşlarımıza bildiririk ki, biz sizin yanınızdayıq"



**Akif Nağı:**
"Biz Türkiyəyə gedib döyüşməyə hazırıq"

❑ RÖYA

# Milli Şura seçkiləri boykot qərarı verdi

## Siyasi partiyalar qərara mövqelərini bildirdilər

**Milli Şura noyabrın 1-də keçiriləcək parlament seçkilərində iştirak etməyəcək. Qərar qurumun sentyabrın 10-da keçirilən Koordinasiya Mərkəzinin toplantısında qəbul edilib. Bu barədə APA-ya açıqlamasında Milli Şuranın sözçüsü Oqtay Gülalıyev məlumat verib: "Azərbaycandakı mövcud vəziyyəti, seçki mühitini nəzərə alıb, bu addımı atdıq. Milli Şura parlament seçkilərində iştirak etməyəcək".**

Seçkilərdə iştirak edən siyasi qurumların Milli Şuranın qərarına mövqelərini öyrəndik.

**Müsavat başqanının müavini Elman Fəttah** verilən qərarın yanlış olduğu qənaətindədir: "Milli Şura siyasi xəttini özü müəyyən edir. Mən bunu Azərbaycanda demokratik mübarizənin fasiləsizliyi və ardıcıllığı baxımından yanlış qərar hesab edirəm. İnsan haqlarının müdafiəsi və demokratiya uğrunda mübarizə üçün töhfə verən bir qərar deyil. Amma Milli Şura müstəqil bir qurumdur. Özləri düşünürlər, buna uyğun da siyasi qərarlarını qəbul edirlər. Ümid edirəm ki, qəbul etdikləri qərarın reallaşması uğrunda siyasi mübarizələrini daha da intensivləşdirirlər".




**Ümid Partiyasının sədri İqbal Ağazadə Milli Şuranın qərarının onlar üçün problem yaratmayacağını söylədi:** "Milli Şuranın qərarının bizim üçün əhəmiyyətli, yaxud əhəmiyyətsiz olması barədə bir düşüncəyə malik deyilik. Bizim üçün heç bir problemi yoxdur".

**"Azadlıq-2015" seçki blokuna daxil olan partiyalardan KXCP sədri Mirmahmud Mirəlioğlu:** "Mənə elə gəlir ki, bu qərar qəbul edənlərin yalnız özlərinə aiddir. Özləri bilərlər, kimə nə isti-soyuğu var? Mənfi yaxud müsbət nəticələri də yalnız özlərinə aid olacaq. Məncə, mətbuat da heç belə qərarların arxasınca düşməməlidir. Ölkədə neçə milyon əhali yaşayır? Bunların neçəsi seçicidir? Belə məsələlərə zaman ayırmaq lazım deyil".

**ADP sədri Sərdar Cəlaloğlu Milli Şuranın qərarının boykot yox, seçkilərdə iştirak etməmək kimi qəbul edilməsini düzgün sayır:** "Boykot xalqın iştirak etdiyi prosesdir. Sadəcə olaraq, seçkilərdə iştirak etmək istəmirlər. Bu da hər bir siyasi qurumun daxili qərarıdır. Adətən həmişə belə olur. Müxalifət seçkidə iştirak edəndə, Əli Kərimli iştirak etmir. Əks təqdirdə, biz iştirak etməyəndə, Əli Kərimli iştirak edir. Bu şəxsin özünü daim müxalifətdən kənarda qoymaq düşüncəsi var. 1998-2000-ci illərdə bunların şahidi olmuşuq".

❑ Cavanşir ABBASLI

# Geriyə, səltənətə doğru



Xalid KAZIMLI

**Qardaş Türkiyədə baş verən hadisələr *(PKK terroru, mətbuata basqılar, hakim partiyanın hegemonluğu)* ölkənin indiyə qədər tutub getdiyi, zaman-zaman çala-çuxura düşdüyü, kələ-kötürə rast gəldiyi demokratiya yolundan sapacağı görüntüsünü yaradır.**

10 il öncə bu ölkə demokratik, sabit, sakit, firavan Avropa dövləti olmaq yolunda əmin addımlarla irəliləyirdi və az qala Avropa siyasi ailəsinin - Avropa İttifaqının üzvü olacaqdı.

Bu gün Türkiyə müsəlman dünyasının daha bir qüdrətli nəhəngi olan Pakistanın gününə düşüb. Pakistanda da belədir: ölkədə demokratik seçkilər keçirilir, hakimiyyət komandaları, baş nazirlər dəyişir, eyni zamanda siyasi qətllər, terror aktları ara vermir, dini radikalizm artır, ölkə inkişafdan qalır.

Şərq ölkələri var qüvvələri ilə demokratiyaya qarşıdırlar - bu, Türkiyənin timsalında da sübut olunmaqdadır. Türkiyə geriyə, səltənətə doğru qayıdır.

Demokratik hakimiyyətlər Şərq ölkələrində sabitlik, əmin-amanlıq yaratmağa qadir deyil. Belə bir görüntü var ki, bu regionda mütləq dəmir əl lazımdır.

Uzun müddət Türkiyəni idarə edən, hər dəfə devrildikdən sonra xalqdan yenə yetərli sayda səs alan siyasətçinin soyadının Dəmirəl olması təsadüfi deyildi. Xalq məhz dövləti dəmir əllə idarə edəcək siyasi xadim arayırdı və hələ də aramaqdadır.

Hazırkı prezident Rəcəb Tayyib Ərdoğan xalqın aradığı dəmir əlli liderdir. Ancaq son illər Ərdoğan xalqın istədiyindən də artıq "dəmir əl" sahibi olmaq, ölkəni sultanlar kimi təkbaşına idarə etmək istəyir.

Onda bu iştaha Türkiyə xalqı hər dəfə seçkilərdə AKP-yə 50 faizə yaxın səs verə-verə oyandırdı.

Əgər noyabrın 1-də keçiriləcək təkrar parlament seçkilərində Ərdoğanın partiyası təkbaşına hökumət qurmaq səlahiyyəti qazansa, qardaş ölkə uzun bir qaranlıq tunelə girəcək, hakim partiya bizim ölkəmizdəki YAP kimi sözün birbaşa mənasında hökmran partiyaya çevriləcək.

Hər şey Türkiyə müxalifətindən, ondan da daha çox dürüst və şəffaf seçkilərdə öz iradəsi ilə səs verməyə, özünə halallıqla hökumət seçməyə vərdiş etmiş xalqın iradəsindən asılı olacaq.

Türkiyə cəmiyyətinin demokratiyaya hazır olmamasının daha bir göstəricisi 7 iyun seçkilərində 80-dən artıq mandat qazanaraq TBMM-də təmil olunmaq haqqı qazanmış PKK/HDP-nin və onun elektoratının davranışıdır.

Öz məqsədlərinə siyasi yolla çatmağın bir addımlığındaykən PKK\HDP tərəfdarları yenə dağa dırmaşdılar, üzlərini bağlayıb, əllərinə yandırıcı mayelər götürüb küçələrə töküldülər, xain pusqular quraraq silsilə terror aktları törətməyə başladılar.

İndi dövlət onlarla anladıqları dildə danışmağa məcburdur. Beləcə, dövlətə silah qaldıranların bir hissəsi öldürüləcək, bir yarısı xaricə qaçacaq, ələ keçənlər məhbəsə doldurulacaq. Onlar da nə qədər günahsız gənc əsgəri, məsum insanları şəhid edəcəklər.

Bütün bu baş verənlər demokratikləşmə prosesinə ciddi zərbədir. Seçicilər bu xaosun sona yetməsi üçün öz hüquq və azadlıqlarının məhdudlaşdırılmasına razı olacaqlar.

Bənzər proses bu və ya digər şəkildə öz ölkəmizdə də gedib. Məmləkət əhli Qarabağda və ətraf rayonlarda gedən müharibədən, yeni-yeni formalaşan dövlət üçün təbii mərhələ olan keçid dövründən, iqtisadi böhranlardan o qədər psixoloji və maddi sıxıntı çəkdi ki, demokratiya uğrunda mübarizədən asanlıqla vaz keçdi, "rəhbər kim olursa-olsun, təki sakitlik, salamatlıq olsun" fikrinə kökləndi və hələ də o düşüncədədir.

Bu ovqatda olanlar bir müddət keçəndən sonra, öz haqları tapdalananda, dövranı uzun sürən, dəyişməz hakimiyyətdən "dəmir yumruq" yeyəndə haqq-ədalət davasına qalxmaq istəyir, onda da daha bir acı qapaz yeyərək yerində oturur.

Demokratiya elə bir nemətdir ki, onu maddi sıxıntılardan, xaotik proseslərdən müvəqqəti qurtulmaq üçün fəda etmək olmaz. Hansısa bir "dəmir əlli" lider ortaya çıxıb problemləri "Qordi düyünü" kəsər kimi radikal üsulla kəsib həll edə, üsyanları amansızlıqla yatırda bilər, amma bu, əsl həll deyil, problemi dondurmaqdır. Bir müddətdən sonra o, daha böyük şiddətlə qabaracaq.

Qardaş ölkənin demokratik dəyişikliklər sahəsində üzləşdiyi problemlər, məruz qaldığı geriləmələr bizim ölkəmizə də mənfi təsirini göstərəcək. Biz gözümüzü Türkiyəyə dikmişdik. Türkiyə yeganə müsəlman ölkəsi idi ki, demokratik quruluşa, hüquqi dövlət anlayışına, müstəqil məhkəmə hakimiyyəti sisteminə malik idi. O da gəlib belə oldu.

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015

# Razi Nurullayev “Azadlıq”ın ittihamlarına sərt cavab verdi

## “İnsanların şəxsiyyətini alçaltmaq çox nadürüst hərəkətdir”



**Əli Kərimlinin mətbuat orqanı funksiyasını daşıyan “Azadlıq” qəzeti “Damğalıların azarkeşliyi” başlıqlı yazı dərc edib. Yazıda əsas hədəf yenə də “Yeni Müsavat” və onun rəhbəri seçilib. Şər-böhtan üzərində qurulan məqalədə bir çox iddialar yer alır.**
**Yalanlarına özləri də inanan bu mətbuat orqanının “Yeni Müsavat”la bağlı yalan ittihamlarına cavab verməyi lüzum bilmədən əsas məsələyə keçirik.**

Məqalədə partiyanı iki hissəyə ayıran, AXCP adına və möhürünə iddiasını irəli sürən Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin sədri Razi Nurullayevə, onun tərəfinə keçənlərə geniş yer ayrılıb. Ciddi iddialar irəli sürülüb. Bildirilir ki, R.Nurullayevin keçirdiyi konfranslar ifşa olunur. Məqalədə əsas diqqətçəkən hissələr bunlardır: “Sosial şəbəkələrdə, ”Azadlıq" qəzetində saxta konfranslar açıq şəkildə ifşa olunur. YAP üzvünün, məşəl daşıyanın, qul bazarında işləyənin “cəbhəçi” kimi təqdim olunduğu fotolarla isbatlanır. Profilinə İlham Əliyevin fotosunu qoyan, 15 il öncə AXCP-dən qovulan, 5 manat qarşılığında Sumqayıtda, Suraxanıda, Beyləqanda “mən cəbhəçiyəm” deyən adamlar haqqında geniş məlumatlar var. AXCP-ni tərk edənləri danmaq fikrində deyilik. Bəli, böyük pullar müqabilində 6-7 cəbhəçi səngəri dəyişdi".

**R.Nurullayev “Yeni Müsavat”a açıqlamasında səslənən iddialara belə aydınlıq gətirdi:** “Mətbuatda bu barədə yazı gedib. Məşəl daşıyan şəxs kimi Əli Sarıyev nəzərdə tutulub. Bu şəxsi Əli Kərimli çox gözəl tanıyır. AXCP-nin üzvü olub. 12 dəfə Azərbaycan çempionu olub. Bir çox titulların sahibidir. Beyləqanda ən çox titullu idmançı Əli Sarıyev olub. Bu şəxsə məşəl aparmaq təklif olunub. O da imtina etməyib. Cəbhəçi kimi məşəl aparanların sırasında olub. Burada bir problem yoxdur. O insan bu gün də cəbhəçidir. Belə bir insana bizə qoşulduğuna görə çamur atmaq, ləkələmək onların xislətinə yaraşır. Biz tərəfə keçən hər kəsin ad-soyadı qeyd olunur. Çox ağıllı, kübar, mədəni şəkildə rayon şöbələrimizi yaradırıq. Biz bu uğurları qazandıqca, onların ayaqlarının altından yer qaçır, mətbuat və sosial şəbəkələrdə şər-böhtan yağdırırlar. ”Azadlıq" qəzetinin əsas missiyası şər-böhtan yağdırmaqdır. Açığı, orada yazılan məqalələri oxumuram. Çünki onları oxuyub vaxt itirməkdənsə, daha səmərəli işlər görərəm. AXCP-nin Əli Kərimli qanadı rayonlarda bir neçə nəfəri yığır, tədbir keçirir. Ümumiyyətlə, AXCP-yə aidiyyəti olmayan şəxslər tədbirdə iştirakçı olurlar. Sadəcə görüntü yaradırlar. Bəzi rayon şöbələrində isə köhnə şəkilləri yeni şəkillər kimi insanlara sırıyırlar. Bu işlərin də üzərində çalışırıq. Həmin şəkilləri araşdırıb cəmiyyətə təqdim edəcəyik. Saxtakarlar ifşa olunmalıdır".

**R.Nurullayev onun tərəfinə keçənləri “5 manatlıqlar” adlandıranlara belə cavab verdi:** “İnsanların şəxsiyyətini alçaltmaq çox nadürüst hərəkətdir. Bunlar heç bir siyasətçiyə yaraşmaz. İnsanları ”5 manatlıq" adlandırmaqla, bu pulun qarşılığında satıldığını demək, onların şəxsiyyətini alçaltmaq və üzlərinə tüpürmək anlamına gəlir. Bunu özlərinə rəva görürlərsə, o zaman ictimai qınaq olmalıdır. Allahın yaratdığı insanı necə təhqir etmək olar? Təbii ki, heç kəs bizə pul müqabilində qoşulmayıb. İnsanlarla söhbət aparmışıq, onlar da bizə qoşulublar. 5 manatla ittiham etdikləri insanlar düşünürəm ki, məhkəməyə müraciət etməlidirlər. Çünki onların şəxsiyyəti ciddi şəkildə aşağılanıb".

**Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin sədri 6-7 nəfər cəbhəçinin onun tərəfinə keçdiyi iddialarına da münasibət bildirdi:** “Əli Kərimli pula həris insandır. Bunu hər kəs deyir. Hər bir məsələnin də ətrafında pul fırlanır. Bunları puldan başqa düşündürən başqa şey yoxdur. Yazdıqları məqalə, statuslarda da əsas bu məsələyə toxunurlar. Pul qarşılığında insanların tərəfimizə keçdiyini deyənlər, onlara bu tapşırığı verənlər əmin olsun ki, göstərdikləri məbləğdən qat-qat aşağı məbləğə satılarlar. Onlara əsas cavabım budur. Özlərini satmaq, kimlərləsə bazarlığa getmək istəyirlərsə, getsinlər, satın alınsınlar. Sadəcə bizdən uzaq gəzsinlər”.

**R.Nurullayev məqalədə “Yeni Müsavat” qəzetinin şər-böhtanlara məruz qalmasına da münasibət bildirdi:** “Tənqidim açıq və şəffafdır. Bütün cəmiyyət bunu görür. Azərbaycanda yeni tipli, Türkiyə modelli müxalifət yaradacağıq. Buna əminəm. Zaman gələcək, onların söz deməyə sözləri qalmayacaq. Əgər ”Yeni Müsavat" hakimiyyətin qəzetidirsə, hakimiyyət maliyyələşdirirsə, o zaman niyə bu qəzet ən oxunaqlı qəzetdir? Belə çıxır ki, bütün xalq iqtidar tərəfindədir. Əli Kərimli və tərəfdarları niyə deyir ki, xalqın 90-95%-i müxalifdir. Bu fikirlə mən də razıyam. Amma təəssüf ki, indiyə qədər xalqı arxasınca aparan bir lider olmayıb. Partiyalara inam qalmayıb. Əli Kərimli siyasətini təhqir, şər-böhtan üzərində qurub. Mən və “Yeni Müsavat” hakimiyyətə işləyiriksə, insanlar niyə yanımıza gəlirlər, bizi oxuyurlar? Əli Kərimli niyə ətrafına yüz minlərlə insan yığıb, mitinq eləmir? Bu suallara cavab versinlər. “Azadlıq” qəzetinin bu cür iyrənc böhtanlara qarışmasını istəmirəm. Mətbuat müstəqil olmalıdır".

Qeyd edək ki, AXCP-nin qurultayı sentyabrın 27-də keçiriləcək. Artıq yer ayrılması ilə bağlı partiyanın müraciətinə BŞİH cavab verib. Rəsmi qurum qurultayın keçirilməsi üçün Səttar Bəhlulzadə adına Mədəniyyət Evini ayırıb.

❑ **Cavanşir ABBASLI**




## İqtidar Fransanın dövlət telekanalını məhkəməyə verir

**Azərbaycan hakimiyyəti Fransanın dövlət telekanalı “France 2”yə qarşı məhkəmə iddiası qaldırır.**

Virtualaz.org saytı xəbər verir ki, barədə Azərbaycan hakimiyyətinin maraqlarını müdafiə edən vəkil Olivye Pradoya istinadən Fransa Beynəlxalq Radiostansiyası (RFİ), habelə “France Press” agentliyi bildirir.

Məhkəmə iddiasının qaldırılmasına səbəb telekanalın bugünlərdə efirə gedən “Cash İnvestigation” proqramında Azərbaycan prezidentinin ünvanına səslənmiş ifadələrdir.

Proqramda Azərbaycan “diktatura”, prezident Əliyev isə “despot” adlandırılır.

“Jurnalistlər Eliz Lyuse və Loran Rişar proqramın lap əvvəlindən Azərbaycanı dünyanın ən qəddar diktaturalarından biri kimi təqdim edir”- deyə fransalı vəkil Olivye Prado bildirib.

Fransa prezidenti Fransua Ollandın Azərbaycana 2014-cü ildə etdiyi səfərə həsr edilmiş proqram sentyabrın 8-də efirə gedib.

“Bütün proqram boyu heç bir sübut göstərilmədən Azərbaycan liderinin ünvanına ”Qafqaz despotu" və “diktator” ifadələri işlədilir"- deyə vəkil izah edib.

Olivye Prado bildirib ki, Azərbaycan bundan sonra bu cür ittihamlara dözmək niyyətində deyil və ona böhtan atanlar barəsində məhkəməyə müraciət edəcək.

## Beynəlxalq Bank qalmaqalı ilə bağlı sensasion məlumat

# Məşhur şirkətin şöbə müdirinin sirli intiharı-5 milyon avro...

## Kredit borcuna görə həbs edilən şirkət prezidenti Fariz Muradovun yaxın adamı Arif Yusifov özünü niyə asıb?; təsərrüfat xidmətinin rəisinin də həbsi gündəmə gəlibmiş


Fariz Muradov

**Beynəlxalq Bank işinə görə həbs olunan “İnter Glass” şirkətinin prezidenti Fariz Muradovun yaxın adamı Arif Yusifov özünü asıb. “Yeni Musavat”ın əldə etdiyi sensasion məlumata görə, Arif Yusifov “İnter Glass” zavodunda intihar edib.**

İş adamı Fariz Muradov mayın 15-də Beynəlxalq Bank işi ilə bağlı istintaq başlayan zaman həbs edilib. Şirkət prezidenti 50 milyon dollarlıq mənimsəmədə ittiham olunaraq Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Həbs edilən zaman ondan kredit borcunu ödəməsi tələb olunub. Lakin borcunu ödəyə bilməyən iş adamı haqda Nərimanov Rayon Məhkəməsi tərəfindən həbs-qətimkan tədbiri seçilib.

F.Muradova yaxın biznesmen Arif Yusifov “İnter Glass” şirkətində səlahiyyətli şəxslərdən biri olub. O, şirkətin əsas işlərini idarə edib. Əldə etdiyimiz məlumata görə, Fariz Muradovun həbsindən sonra Arif Yusifovun da həbsi gündəmə gəlib. Çünki A.Yusifov “İnter Glass” MMC-də təsərrüfat xidmətinin rəisi işləyib və əsas maliyyə məsələlərinə o məsul olub. Ehtimala görə, iş adamı çıxış yolunu intihar etməkdə görüb.

1963-cü il təvəllüdlü Arif Yusifov sentyabrın 3-də “İnter Glass” şirkətinin Bakının Qaradağ rayonunda, Salyan şossesi, 25 ünvanda yerləşən nəhəng “İnter Glass Azerbaijan” şüşə məmulatları zavodunun sexində özünü asıb. Hazırda hadisə ilə bağlı Qaradağ Rayon Prokurorluğunda araşdırma aparılır.

2009-cu ildə “İnter Glass” Azərbaycanda yeni investisiya layihəsinə başlayıb. İş adamı Fariz Muradov şirkətin törəmə müəssisəsi olan “Brickwork House Construction Ltd” yeni şüşə zavodunun tikintisinə 52 milyon manat yatırıb. Şirkət zavodun açılması üçün Beynəlxalq Bankdan 5 milyon avro kredit verilib. “İnter Glass” şirkəti Gürcüstanda və Qırğızıstanda da şüşə zavodu açıb.




Xatırladaq ki, Beynəlxalq Bank işinə görə xeyli sayda iş adamı həbs edilib. Onlar Beynəlxalq Bankdan götürdükləri kreditləri vaxtında geri qaytarmamaqda ittiham olunurlar. Həbs edilənlər haqda rəsmi məlumatlar verilməsə də, mətbuatda yer alan xəbərlərə görə, həbs edilən məşhurlar arasında baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun qardaşı Nadir Abbasov, “Qara polkovnik” kimi tanınan mərhum Fətulla Hüseynovun oğlu Adil Hüseynov, bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin bacanağı, “İntertabakko” Zaqatala Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadə də var.

❑ **İlkin MURADOV**
**Musavat.com**

# Nazirin yaxın ətrafına aid “Transgeyt” şəhər nəqliyyatından çıxarıldı

**Taksi minik avtomobilləri ilə sərnişin daşınmasına lisenziya verilməsinin Nəqliyyat Nazirliyindən alınması, prezident İlham Əliyevin sentyabrın 8-də keçirdiyi müşavirədə nəqliyyat sektorundakı özbaşınalıqları tənqid etməsi Ziya Məmmədovu medianın az qala “ulduzuna” çevirib. Uzun müddətdir ortada görünməyən nazir isə həm yerini nişan vermir, həm də inadkarcasına susur.**



# Ziya Məmmədovun suçu nə: pul və...

## Onun rəhbərlik etdiyi Voleybol Federasiyanın işçiləri 4 aydır məvacib ala bilmir; Cavid Qurbanov isə idmançıları maliyyələşdirməkdən imtina edib; Məmmədovların daha bir biznesi - Qubadakı “Rixos Quba” hoteli də əllərindən çıxıb

İş o yerə çatıb ki, nazirin “yerinə hazırlandığı” deyilən “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanova yaxınlığı ilə tanınan media qurumları da bu mövzuya əvvəlki ehtiyatlıqla yanaşmırlar, Z.Məmmədovun nazir kimi sayılı günlərinin qaldığını iddia edirlər. Bu, əlbəttə ki, hakimiyyətə yaxın qrupların Z.Məmmədovla bağlı informasiyalarından qaynaqlanır və bu baxımdan diqqət çəkir.

İş o yerə çatıb ki, Azərbaycanın ən iri oliqarxlarından biri olan Z.Məmmədovun prezidenti olduğu Voleybol Federasiyasının işçiləri belə dilə gəliblər. Məlum olub ki, 300-400 nəfərə yaxın federasiya işçisi artıq 4 aydır ki, maaş ala bilmir. Avropa Oyunları zamanı heç bir yer tuta bilməyən Voleybol Federasiyasının işçilərinə o vaxtdan bu günə qədər əmək haqları verilmir. Əvvəllər Voleybol Federasiyasını Cavid Qurbanov maliyyələşdirib. C. Qurbanova müraciət etdikdə, QSC sədri artıq bu işdə heç bir məsuliyyət daşımadığını deyib. İşçilər federasiya prezidenti Ziya Məmmədovdan da müsbət cavab ala bilməyiblər.

Bundan əlavə, legioner oyunçular Voleybol Federasiyasını məhkəməyə verib. Artıq legioner qızların qaldığı kirayə evlərdən də xəbərdarlıq gəlib. Çünki 4 aydır ki, legioner qızların kirayə haqları da verilmir və ev sahiblərindən xəbər göndərilib ki, əgər üç gün ərzində kirayə pulları verilməsə, qızları əşyaları ilə birgə evdən çıxaracaqlar. Bu xəbərin ən ilginc tərəfi C.Qurbanovun artıq Ziya Məmmədovun rəhbərlik etdiyi federasiyanı maliyyələşdirməkdən imtina etməsidir. Bu həm də o deməkdir ki, C.Qurbanov kifayət qədər müstəqilləşib, nazir isə nəzərəçarpacaq dərəcədə zəifləyib...

Xatırladaq ki, nazir oğlu Anar Məmmədovun rəhbərlik etdiyi Azərbaycan-Amerika Alyansı da bugünlərdə fəaliyyətini dayandırıb. Alyansın Vaşinqtondakı mərkəzi ofisini bağlayaraq bunu “maddi vəziyyətlərinin ağır olması” ilə əlaqələndiriblər.

Ölkənin ən iri oliqarxının birdən-birə kasıblaması əlbəttə ki, fantastik film kimi qeyri-realdır. Mümkündür ki, Nəqliyyat Nazirliyinin səlahiyyətləri bir-bir əlindən alındıqca, nazir də əlavə pul xərcləməyə əvvəlki qədər həvəsli deyil. Üstəlik, lisenziya ilə bağlı prezidentin fərmanı nəqliyyat nazirini milyonlarla gəlirdən də məhrum edir. İddialar var ki, noyabrda parlament seçkilərindən sonra ciddi struktur islahatlarına başlanacaq. Köklü dəyişikliklərin ediləcəyi nazirliklərin siyahısında ilk yerə məhz Nəqliyyat Nazirliyinin adının düşəcəyi deyilir. Amma niyə axı ölkənin ən qüdrətli naziri hakimiyyətin nəzərindən bu qədər düşsün? Son günlər ən aktual suallardan biri, bəlkə də birincisi budur: Ziya Məmmədovun suçu nə?

İndiyədək bu mövzuda çox yazılıb, ən müxtəlif versiyalar səslənib. Nazirin hakimiyyətin “qara siyahısında” olan Abbas Abbasovla dostluğundan tutmuş, Rusiya prezidenti Vladimir Putinə “yol axtarmağa” qədər versiyalar ortaya atılıb. Hətta onun Amerika prezidentliyinə namizədliyi irəli sürülən Donald Trumbla hansısa gizli sövdələşmələrinədək versiyalar səslənib. Son günlər ən çox səslənən versiya isə nazirin iqtidarla pul söhbətində “ilişməsi” göstərilir.

Məlumata görə, bir neçə gəlirli sahəyə nəzarət etdiyindən Ziya Məmmədovun “maliyyə xəyanəti”ndə suçlanması ehtimalı başqalarından daha çoxdur.

Bu mövzuda yazan “Azadlıq” qəzeti iddia edir ki, nazirin “vurulması” üçün hakimiyyətin əlində sübut var: **“Əgər Ziya Məmmədov vurulmaq üçün hazırlanıbsa, deməli, onun ”dövlətçiliyə", yəni həmin “qara kassaya” sadiq olmadığını sübut edən dəlillər tapılıb. İndi durum bir qədər fərqlidir. Əvvəlki illərdə olduğu kimi, israfçılığa yol verilməmelidir. Ziya Məmmədov isə görünür, sözün yumşaq mənasında, “israfçılıq”lara, birbaşa mənasında isə mənimsəməyə yol verib və bu yoldan o tərəfə komandadan kənara atılmaq gəlir".**

Yeri gəlmişkən, sentyabrın 10-da məlumat yayılıb ki, Bakıda “Transgate” MMC-yə məxsus bütün marşrut avtobusları xətdən kənarlaşdırılıb. Şirkətə məxsus marşrut xətləri isə başqa daşıyıcılara verilib. “Transgate” MMC-yə məxsus 11 marşrut xəttinin 1-i ləvğ edilib, qalanları isə başqa daşıyıcılara verilib. Nəqliyyat nazirinin yaxın ətrafına bağlı olan “Transgate” faktiki şəhər nəqliyyatından uzaqlaşdırılıb.

Virtualaz.org saytının mötəbər qaynaqlardan əldə etdiyi məlumata görə isə Məmmədovların daha bir biznes aktivi - Qubadakı “Rixos Quba” hoteli də əllərindən alınıb. Hotelin bugünlərdə başqa mülkiyyətçiyə keçdiyi bildirilir.

Beləliklə, nazir ətrafında baş verənlər açıq qalan sualı bir daha yada salır: Ziya Məmmədovun suçu nə?

❑ **“Yeni Müsavat”**

# Yanan binanın sakinlərindən prezidentə yeni müraciət

## “Xahiş edirik, bizim ev və məişət əşyaları ilə təmin olunmağımıza kömək edəsiniz”

**Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanında yanmış 16 mərtəbəli binanın zərərçəkən sakinləri ölkə Prezidentinə müraciət ediblər. Sakinlər adından musavat.com-a göndərilən müraciətdə bildirilir ki, onlar dəymiş ziyanın aradan qaldırılması ilə bağlı verilmiş rəsmi sərəncamın bəzi məmurlar tərəfindən yerinə yetirilməməsindən narazı qaldıqlarını və sənəddə nəzərdə tutulduğu kimi ev əşyaları ilə təmin olunmalarını istəyiblər.**

“Hazırda mənzillər təmir olunub, mebellə təchiz olunub. Amma soyuducu, kondisioner, televizor, paltaryuyan maşın verilməyib və həmin əşyaların verilməsindən də imtina olunur. Halbuki mənzillər yanarkən həmin əşyalar da sıradan çıxıb”.

Sakinlər deyirlər ki, Binəqədi Rayon İcra Hakimiyyətində baş nazirin birinci müavini Abid Şərifovun sədrliyi ilə keçirilmiş iclasda sakinlərin suallarına cavab olaraq ev əşyalarının onlara ayrılmış 20 min manat mənəvi təzminatla alınacağı bildirilib. Sakinlər isə etiraz olaraq deyiblər ki, həmin 20 min manat kompensasiyanı paltarlarına, yeməyə və sağlamlıq problemlərinə xərcləyiblər.

Müraciətdə həmçinin dövlət başçısı İlham Əliyevdən yanan binadakı evlərin ev əşyaları ilə tam təmin olunması və onlara əlavə problemlər yaradılmaması xahiş olunub.

**Müraciəti olduğu kimi təqdim edirik:**

“Cənab Prezident! Hadisədən dərhal sonra bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Lakin Sizin verdiyiniz tapşırıqları yerinə yetirməkdən boyun qaçıraraq, 15 avqust 2015-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətində Abid Şərifovun sədrliyi ilə keçirilən iclas zamanı bina sakinlərinin suallarına cavab olaraq bildirildi ki, kondisioner, televizor, soyuducu, yorğan-döşək və s. ev əşyaları bizə mənəvi təzminat kimi ödənilmiş 20 min manatla alınmalıdır.




O pul sakinlərə verildikdə mənəvi təzminat olduğunu bildirdiklərinə görə sakinlər həmin pulu ailə üzvlərinin yeməyinə, geyiminə, sağlamlığına və s. xərcləyiblər.

Cənab prezident, sakinlərin bəzilərinin yanmış binadan götürdüyü müəyyən əşyalar var ki, onlar da su və güclü zəhərli tüstü nəticəsində tam yararsız hala düşüb.

Hörmətli prezident, xahiş edirik, bizim ev və məişət əşyaları ilə təmin olunmağımıza kömək edəsiniz".

❑ **SEVİNC**

# Boykot niyə çıxış yolu deyil?



**Hüseynbala SƏLİMOV**

**Artıq əksər partiyalar MSK-ya müraciət etsə də yenə də adamlarda bir tərəddüd ovqatı duyulur. Sanki baxışlarda bir sual var: biz düzmü edirik? Bu, qeyri-adi bir şey deyil. Mən bunu demək olar ki, hər seçki vaxtı müşahidə etmişəm...**

Adamları başa düşmək olar. Məğlubiyyətdən məğlubiyyətə bitib-tükənməyən üzücü yol adamı yorur. Amma başqa yol da yoxdur. Seçki ondan ötrüdür ki, onda iştirak edəsən, adamlarla görüşəsən, sözünü deyəsən və nəhayət, özünü sınayasan...

Hər birimizin zəif-güclü tərəfi haqqında onun özündən yaxşı heç kim bilmir və seçki bu mənada çox yaxşı testdir...

Həm də demokratik təşkilatlar seçkini boykot edən və ya onda iştirak etmək istəməyən siyasi partiyaları və fəalları sevmirlər. Onlar demək olar ki, həmişə bir söz deyirlər: seçkidə iştirak edin...

Bütün bunlardan əlavə bizim boynumuzda bir yük də var: biz özümüzə demokrat demişik... Demokratlar isə öz fikirlərini insanlarla bölüşmək üçün bütün imkanlardan istifadə etməlidirlər...

Bir daha deyirəm ki, çətindir. Biz də bunu başa düşürük. Adam nə qədər məğlub olar? Amma başqa neyləmək olar? Həm də bir işə başlamamışdan öz qəlbini və iradəni məğlubiyyətə kökləmək də düzgün deyil... Gərək qələbəni çox istəyəsən. O qədər istəyəsən ki, artıq heç kim ona mane olmaq iqtidarında olmasın...

Məni xüsusən də bir məsələ narahat edir. İndi ictimai fəallar, jurnalistlər çox gərgin çağlar yaşayırlar. Siyasi partiyalar bu çətinliklərin bir hissəsini bölüşməyə borcludurlar...

Təbii ki, ölkədəki siyasi durum, hətta siyasi məntiq üzücüdür. Az qala iş ona gəlib çatıb ki, neftin ucuzlaşmasına görə də siyasi partiyaları, ictimai fəalları və jurnalistləri qınasınlar...

Bəli, neft niyə ucuzlaşıb? Kimdir günahkar? Əlbəttə ki, müxalifət! Əlbəttə ki, ictimai fəallar! Əlbəttə ki, jurnalistlər!...

Etiraf edirəm ki, bu məntiq adamı sarsıdır. Bu məntiq adamın əlini-qolunu qırır, yanına salır...

Axı adam milli barışığa və dialoqa nə qədər çağırış edər? Bəlkə də bu hakimiyyət bilmir ki, bizim bircə arzumuz var: demokratik seçkidə uduzmaq!

Bəli, elə bu iqtidarın özünə demokratik seçkidə uduzmaq!..

Adam bilmir nə desin? Necə inandırsın? Siyasi partiyaları bir tərəfə qoyuram. Ola bilsin, onların başqa iddiaları var. Hətta ictimai fəalları da demirəm. Ona görə ki, onlarda da seçilmək, deputat olmaq həvəsi olur. Amma biz jurnalistlərin heç bir siyasi iddiası yoxdur axı! Məgər biz jurnalistlər istəmirik ki, ölkədə firavanlıq olsun, insanların həyatı rahatlaşsın? Məgər biz özümüz də elə həmin aztəminatlı təbəqəyə aid deyilikmi?..

Bəlkə də jurnalistikaya ictimai diqqətin bir az artıq olması kimdəsə elə təsəvvür yaradır ki, guya jurnalistlər yağ-bal içində üzürlər! Vallah belə deyil! Billah belə deyil!..

Biz sadəcə, normal ölkədə yaşamaq arzusundayıq. Ona görə də bütün demokratik təşəbbüslərə, o cümlədən də seçkilərə maraq oyatmağa çalışırıq ki, ölkə demokratikləşsin, insanlar azad seçim etsin!..

Burada bizim siyasət və ictimaiyyət fəallarından biri ilə ayaqüstü söhbətim yadıma düşür. O deyirdi ki, mənim artıq 66 yaşım var və bu yaşda siyasi iddiaya düşmək gülünclükdür, istədiyim budur ki, mənim heç olmasa, nəvəm normal ölkədə yaşasın, ölkəsinin adı çəkiləndə sıxılmasın...

Bəli, insanın istədiyi sadəcə, budur... Məgər çoxdurmu? Özü üçün vəzifə istəmir, villa istəmir, zavod istəmir, istəyir ki, nəvəsi normal ölkədə yaşasın!..

Sizi inandırıram ki, azacıq ictimai fəallıq göstərən insanların əksəriyyəti belə düşünür, onlar faktiki olaraq özləri üçün heç nə istəmirlər...

Bu sətirlərin müəllifinin də artıq əlli yaşı var. Bu əlli ili necə yaşamışam, bunu bir özüm bilirəm, bir də Allah! Bundan sonra mənə lazımdır? Əlli yaşımdan sonra durub məmurluq öyrənəcəm?!.

Ona görə də bütün seçkilərə bir ümid kimi baxırıq. Ən azı ona görə ki, elə insanlar var ki, onlar bir doğru-dürüst sözün, bir təsəllinin intizarındadır! Bəli, elə insanlar var ki, sözə möhtacdır, inanın ki, bircə sözə möhtacdır - o söz də budur ki, mən həqiqətən də sizi təmsil edəcəm...

Ona görə də seçkiyə getmək lazımdır. Bəli, ona görə də seçkidə iştirak etmək lazımdır. Ən azı o sözü demək üçün...

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015



# Fərari diplomatların komandiri

Zamin HACI
zaminhaci@gmail.com

**Bir ara vətəndaşı aldadan fırıldaqçı şirkətlər var idi, pul yığıb, tez-tez öz adlarını, ofislərini dəyişib qeybə çəkilirdilər. Yapistlər bu kələyin səmərəli olduğunu gördülər, öz firma, şirkət, banklarında tətbiq eləməyə başladılar. Misal üçün, bir gün yatıb durduq, gördük Milli Bank olub Mərkəzi Bank. Texnikabank adlı qurumun rəhbərliyini içəri basıb xeyli pul qopartmaq fayda vermədi, daha dərinə gedib bankın adını dəyişdilər, bu dəfə oldu "Bank Texnique". Bah. Guya bunun adını fransızca yazanda bankın işçiləri dönüb oldular Mişel Platini, bankın Nərimanov filialının şüşəbəndləri isə Atatürk prospektinə yox, birbaşa Yelisey çölünə açıldı.**

Ziya müəllim dəstədən geri qalmamaq üçün artıq dilə-dişə düşmüş, korrupsiya sorağı Əl-Cəzirədən belə fırlanmış "ZQAN-Holdinq"i asqırıb-öskürüb bir saatın içində "Qarant Holdinq"ə çevirdi. Nəticədə ali rəhbərlikdən öz gələcəyinə qarantiya aldı - pis təsəlli deyil.

Bunlar mənim qısa müddətdə fikirləşib yadıma saldığım ad dəyişiklikləridir. Axtarsan belə dekorativ dəyişikliklər saysız-hesabsızdır. Hamısı da guya dövlətin iqtisadi-sosial inkişafına yönəlmişdir. Kasıbın itinin adını Gümüş qoyması keçilmiş yoldur, indi bizim yapistlər itin adını bir gün Gümüş, bir gün Qızıl, bir gün də Brilyant qoyurlar. Varlığa nə darlıq? Bu mövzuda yaxşı bir ata sözümüz var, onu yazım: "Qoy desinlər Şahbalanın çustu var, Kim nə bilir altı yoxdur, üstü var".

Hətta bankların adını dəyişmək işə yaramadı, başladılar bankirləri dəyiş-düyüş eləməyə. A bankının müdirini B bankına qoydular, B bankının müdirini C bankına. Beləcə üskük oyunu davam etməkdədir. Haçana qədər - bunu gözü çıxan avtoritar qardaşlardan soruşmaq lazımdır. Misal üçün, bir neçə il qabağa qədər Suriya da belə bir sabitlik adası dekorasiyası qurmuşdu. Prinsipcə, indi də sabitdir. Bəşər Əsədi Macarıstandan Avstriyaya qaçan yerdə, ya da Aralıq dənizində boğulan vəziyyətdə kim görüb ki? Heç kim. Yenə Dəməşqdə oturub kefini çəkir. Xalq cəhənnəmə olsun. Xalq artıb törəyər. Əsas xilaskardır, əsas liderdir. Təki onun bığına milçək qonmasın.

Hər sahəmizdə belənçik islahatlar getməkdədir. Hətta polis və orduda da "onu ora, bunu bura" dəyişib günü yola verirlər. Yalnız bir sahə var ki, orda krizis açıq görünür. Bu, uğurlu xarici siyasətimizdir. Elmar müəllim təkcə son bir ayda 3 diplomat qaçırmışdır. Belə komandir əsgərlikdə olsa azı hauptvaxta salarlar. Amma diplomatiya komandirinin fərarilərinə görə heç bir cəzası yoxdur.

Mənə elə gəlir bu cür çox davam edə bilməz. Əgər hər ay 3 diplomat xaricdən siyasi sığınacaq istəsə, bəs bizim xarici siyasətimizi kim qayıracaq? Kim senatorlara kürü, offşor hesablara pul daşıyacaq? Madrid prinsiplərinin Moskva danışıqlarının Paris çərçivəsində Praqa metodikası üzrə Qarabağ probleminin həlli yollarını kim axtaracaq?

Başqa sahələri yuxarıda yazdıq - üskük oynayıb yola vermək olur, ancaq bu zibilə qalmış xarici siyasəti tənzimləmək bir az çətindir. Əsas çətinlik odur ki, ipdə qalan buzovu döyürsən, ancaq qırılıb qaçan dananı harda tutasan? Bir az sadə yazım: diplomatlar xaricdə aradan çıxmaq imkanına malikdir, onları tapıb tutmaq, Kürdəxanıya salmaq, cibinə nəşə atmaq, döyüb hörmətsiz eləmək, evini buldozerlə dağıtmaq və sairə mümkün deyil.

Bəs nə etməli? Mən sadiq dövlətçilik qulu kimi bu işdə milli dövlətimizə yol göstərməyi özümə borc bilirəm. Qoy xaricə gedən hər bir diplomatın burda minimum bir-iki arvad-uşağı girov saxlanılsın. Arvadı olmayanlar qoca anasını girov qoysun. Əks halda səfirlik, konsulluq üzü görməsinlər.

İkincisi, hər bir diplomatı qandalla Çevik Polis Alayı serjantına bağlamaq da olar. Danışıqlara, xarici siyasət qayırmağa serjantla birgə getsinlər. Bizim polisdən gizli nə işimiz var? Hərçənd, istənilən metodika qüsurludur, ola bilər sığınacaq alan diplomat polisi də diplomatik yollarla ələ alsın, onu da sürüyüb aparsın. Amma bu, çox az halda mümkündür. Bizim polis dövlətçilik işində daha etibarlıdır, çünki ingilis-mingilis dilini əsasən bilmirlər, xarici kitab oxuyub tərbiyələrini pozmayıblar.

İndi söz əlaqədar təşkilatlarındır. (Ayrı nə gözləyirdiniz?)



# Kreml Bakıya qarşı "qamçı-kökə" siyasətini sərtləşdirir

## Rusiya qısa fasilədən sonra Xəzərdə növbəti hərbi təlimə başlayıb; Moskva Azərbaycanla həm silah ticarəti içindədir, həm də Bakını hər tərəfdən hədəfdə saxlayır...

**Azərbaycanın ölkə miqyasında ilk dəfə olaraq ən iri - 65 minlik hərbi oyunları davam edir. Şübhəsiz ki, bu təlimlər ilk növbədə Ermənistana və onun havadarlarına Bakının öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacağı haqda bir xəbərdarlıq mesajıdır, güc nümayişidir.**

Təsadüfi deyil ki, Azərbaycanın öz hərbi hazırlıqlarını gücləndirməsindən, eyni zamanda onun Türkiyə ilə bu sahədə əməkdaşlığı genişləndirməsindən, o sırada artan birgə təlimlərindən təlaşa düşən Ermənistanın prezidenti Serj Sərkisyan bunu Rusiya prezidenti Vladimir Putinlə sonuncu görüşündə dərhal dilə gətirib və...

Və Sərkisyan İrəvana qayıdar-qayıtmaz Rusiya Xəzər donanmasının 40-a yaxın döyüş gəmisi isə Rusiya Mərkəzi Hərbi Dairəsinin döyüş hazırlığının planlaşdırılmamış yoxlanması tədbirləri çərçivəsində təlimlərə başlayıb. Report" TASS agentliyinə istinadən xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib.

"Qoşun növləri arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə Xəzər Donanmasının gəmi birləşmələri və sahil qoşunları yüksək dərəcəli döyüş hazırlığı vəziyyətinə gətirilib. Həştərxan və Mahaçqaladakı daimi dislokasiya bazalarından Xəzər dənizində təlimlər keçirilən əraziyə 40-a yaxın döyüş gəmisi və köməkçi gəmilər gəlib", - Rusiya Müdafiə Nazirliyindən bildirilib.

Dənizçilər mina və təxribatçılara qarşı tədbirlərin həyata keçirilməsi üzrə təlim keçəcəklər. Təlimlərə ümumilikdə 3 min hərbçi və 120-dən artıq hərbi texnika cəlb olunub. Yada salaq ki, Rusiya cəmi bir neçə həftə qabaq Qazaxıstan və Azərbaycanla Xəzərdə ortaq hərbi manevrlər həyata keçirmişdi.

***

İki gün öncə isə Rusiya Tiflisin ciddi etirazına rəğmən, separatçı Abxaziya bölgəsində yerləşdirdiyi hərbi hissələrində komanda-qərargah təlimləri başlayıb. Musavat.com-un gürcü qaynağına istinadən verdiyi xəbərə görə, hərbi təlimlərə Rusiyanın Cənub Hərbi Dairəsinin (CHD) Abxaziyadakı hərbi bazasının 700 hərbi qulluqçusu və 150-dən çox zirehli texnika, reaktiv sistemlər cəlb edilib.

CHD-nin mətbuat xidmətinin məlumatına görə, təlimlərin əsas hədəfi - müasir avtomatlaşdırılmış idarə sistemləri və yeni hərbi texnikadan istifadə eləməklə dəniz sahilləri, dağ-meşəlik və düzənlik əraziləri şəraitində müxtəlif təlim döyüşləri aparılan zaman birləşmələrin komanda heyətinin idarə vərdişlərini təkmilləşdirməkdir.

***

Həm Xəzər dənizində, həm Ermənistanda, həm də Rusiyanın işğal elədiyi Abxaziyada keçirilən və artıq permanent xarakter daşıyan bu təlimlərdə əsas hədəf əlbəttə ki, Qərbdir, Güney Qafqaz ölkələrini, ələlxüsus müstəqil siyasət yürüdən Azərbaycan və Gürcüstanı təhdid altında saxlamaqdır, onların "başını qaldırmasına" imkan verməməkdir.

Azərbaycan hazırda ən iri miqyaslı hərbi təlimlərini davam etdirir. Gürcüstan isə durmadan NATO yönündə inteqrasiya siyasəti aparır. Məlum olduğu kimi, ötən ay Tiflisdə alyansın təlim mərkəzi açılıb ki, bu da Moskvanın qəzəbinə səbəb olub. Bununla belə, əsas hədəf, fikrimizcə, Qarabağ münaqişəsi zonasında vəziyyətin gərginləşməsi də nəzərə alınarsa, Azərbaycandır.

Maraqlıdır ki, Rusiya Azərbaycanla hərbi-texniki sahədə əməkdaşlığı davam etdirir. Belə ki, "Rosoboroneksport" 2017-ci ilədək imzalanmış kontraktlar çərçivəsində Azərbaycana ən müasir hərbi texnika vahidlərinin verilməsini başa çatdıracaq. Demək, Rusiya ənənəvi siyasətinə sadiqdir. Kreml həm əməkdaşlıq edir, həm də bizi hədələyir. "Qamçı və kökə" siyasəti necə olur ki...

❑ **Siyasət şöbəsi**

# Rusiya Suriyaya dəniz piyadaları göndərdi

**Rusiya Suriyadakı hərbi əməliyyatlarda iştirak edir. Məlumata görə, bu barədə "Reuters" agentliyi etibarlı qaynaqlara istinadən xəbər yayıb.**

ABŞ Silahlı Qüvvələrindən agentliyə bildirilib ki, Moskva Suriyaya iki desant gəmisi və əlavə aviagəmi yollayıb. Hərbçilərin sözlərinə görə, bu ərəb ölkəsinə son günlər ərzində Rusiya çox da böyük sayda olmayan desant kontingenti çıxarıb.

Pentaqon nümayəndələri Rusiya silahlı qüvvələrinin Suriyada hansı məqsədi güddüyünü hələ ki dəqiqləşdirə bilməyiblər. Versiyalardan birinə görə, hədəflərdən biri Suriya ordusunun nəzarətindəki liman şəhəri Latakiyanın yaxınlığında enmə zolağı hazırlamaqdır.



"Reuters"in isə birdən-birə üç qaynağı iddia edir ki, Rusiya qoşunları Suriyadakı əməliyyatlarda birbaşa iştirak edir.

Bu arada isə məlum olub ki, ABŞ dövlət katibi Con Kerri növbəti maliyyə ili üçün ölkəsinin qəbul edəcəyi qaçqınların sayının artırılması fikrini dəstəkləyib.

APA-nın verdiyi xəbərə görə, bu barədə "The New York Times" qəzeti məlumat yayıb.

**"Biz qəbul edəcəyimiz qaçqınların sayının artırılması fikrinə sadiqik. Hazırda biz onların dəqiq sayını müəyyənləşdirməyə çalışırıq"**, - deyə Kerri söyləyib.

C.Kerri 100 minə yaxın məcburi köçkünə viza verilməsinin mümkün olduğunu bildirib. Lakin bu, yekun qərar deyil.

30 sentyabrda başa çatacaq 2015-ci maliyyə ilində hakimiyyət 70 min qaçqına viza verilə biləcəyini açıqlamışdı. Obama administrasiyası daha əvvəl qanunverici orqandan növbəti maliyyə ili üçün limiti daha 5 min artırmağı təklif etmişdi. Lakin Avropada miqrant böhranın təhlükəli səviyyəyə qalxmasından sonra Dövlət Departamenti məsələyə daha ciddi yanaşmağı təklif edib.

Qeyd edək ki, bu gün 2 milyondan çox suriyalı qaçqın Misir, İraq, İordaniya və Livan ərazisində sığınacaq tapıb. 1,9 milyondan çoxu isə Türkiyədədir. Daha 348 min suriyalı isə Avropa ölkələrinə sığınacaq üçün müraciət edib.

# "Bu, artıq tendensiyadır"

**Xarici işlər Nazirliyində baş verənlər ölkə gündəminin əsas mövzularından birinə çevrilib. İyun ayında səfir Arif Məmmədovun çıxışları və geri çağırılmasından sonra bu dəfə Avstraliyadakı səfirliyimizdə iki diplomat Azərbaycana qayıtmaqdan imtina edib.**

## Hikmət Hacızadə: "Burdakı rəzalət davam etsə, bu proses də davam edəcək"

Əvvəlcə səfirliyin 3-cü katibi Anar Həsənovun səfir Rövşən Cəmşidov və səfirliyin mühasibinin yol verdiyi korrupsiya əməlləri barədə ifşaedici sənədləri yayan A.Həsənovun geri qayıtmadığı və Avstraliya hökumətindən sığınacaq istədiyi bildirilir. Bundan az sonra isə yenə Avstraliyadakı səfirliyimizin 3-cü katibi Fərid Sübhanverdiyev diplomatik xidmətdən azad edilsə də, ölkəsinə qayıtmaqdan imtina edib. Fərid Sübhanverdiyevin 2 aya yaxındır ki, Avstraliyada təhsil almaq üçün lazımi vizanı gözlədiyi bildirilir.

Diplomatların bu addımı artıq hökuməti də narahat etməyə başlayıb. Nazir Elmar Məmmədyarov isə deyib ki, Xarici İşlər Nazirliyində tutduğu vəzifəsindən asılı olmayaraq qanunun tələblərini, dövlət qulluqçusunun etik davranış qaydalarını pozan, əqidəsinə xilaf olan, fəaliyyətində nöqsanlara yol verən və diplomat adına ləkə gətirən əməkdaşlara qarşı qanunla müəyyən olunmuş qaydada ən sərt intizam tədbirləri görülür və bundan sonra da görüləcək.



Ancaq hökumət hansı addımları atacaq? Bu proses davamlı olacaqmı? Dövlətin elitar, yüksək intellektli, savadlı və əsasən təminatlı ailələrdən çıxan insanların çalışdığı diplomatik korpusda baş verənlərin gerçək səbəbləri nədir? Bu sualları keçmiş səfir, politoloq Hikmət Hacızadəyə ünvanladıq. Hikmət bəy deyir ki, diplomatlar ölkədə baş verənlərdən təsirlənirlər:

- Bu, yalnız XİN sistemində deyil, bütün ölkədə baş verən bir prosesdir. Məsələ ondadır ki, bütün ölkədəki ovqat gedib ora da çıxıb. Ölkədə nə baş verir, hansı biabırçılıqlar olur, diplomatlar hamısı bunu bilir. Özləri isə çox gözəl, azad, firavan ölkələrdə yaşayıb işləyirlər. Yəni gündəlik oranı da görürlər. Və əlbəttə ki, bunlar hamısı kontrastdır. Sən hansısa cənnətdə qalırsan, ancaq öz ölkən pis gündədir və bir gün ora qayıtmalı olacaqsan. Bütün bunlar hamısı diplomatları düşündürür. Gələcəklərini görmürlər və başlayırlar belə addımlar atmağa. Bunlar hamısı bizim daxili siyasətin davamıdır.

***- Ancaq XİN sistemi elədir ki, ora, belə desək, "təsadüfi" adamlar düşmür. Ciddi kadr seçimi aparılır və həm də daha çox hakim elitaya yaxın dairələrdən diplomatik korpusa düşürlər. Bu cür bir yerdə işləyən kadrların etiraz etməsi sıradan hadisə deyil.***

- Yox, elə deyil. Orda, belə deyək, rejimə sadiq, bağlı adamlar da, qohum-qardaş da var. Amma neytral adamlar da var. Aparat böyükdür axı... O qədər adamı qohum-qardaş içərisindən tapa bilməzsən. Bu neytral adamlar baxırlar, götür-qoy edirlər, vəziyyətə görə narahat olurlar. Burdakı mübarizəyə baxırlar. Eyni zamanda orda qəzetlərdə Azərbaycan haqqında, burdakı hökumət haqqında yazılanları oxuyurlar. Bütün bunların nəticəsi olaraq belə qərarlar qəbul edirlər.

***- Məlumdur ki, XİN o qədər də korrupsiyaya bulaşmamış, belə desək, neft pullarının çatmadığı bir qurumdur. Həm də yüksək savadlı, intellektli kadrların çalışdığı bir nazirlikdir. Əgər burda diplomatlar rəhbərliyə qarşı etiraza qalxırsa, hətta sığınacaq üçün müraciət edirsə, bu onu göstərir ki, XİN sistemində ciddi böhran var.***

- Siz doğru qeyd etdiniz. Əslində vəziyyət belədir ki, harda düzgünlük var, orda azadlıq və düzgünlük tələbi çox olacaq. Bu mənada burda durum fərqlidir. Əgər gömrük sistemindən məmurlar qaçmağa başlasaydı, onda artıq fərqli vəziyyət olardı, yəni sistemin sonunu göstərirdi. Ancaq siz qeyd etdiyiniz kimi, bu idarə müəyyən mənada korrupsiyadan uzaqdır, öz aləmlərində vicdanlarının təmiz olduğuna inanırlar. Ona görə də hesab edirlər ki, azadlıq, ədalətli münasibət tələb edə bilərlər".

***- Belə bir fikir var ki, diplomatların bu cür imtinaları, xarici ölkələrdən sığınacaq istəmələri tendensiyaya çevrilə bilər. Necə düşünürsünüz, hökumət bu prosesin qarşısını ala bilərmi? Elmar Məmmədyarov da araşdırmaların başlandığını, nəticələrin aradan qaldırılacağını dedi. Nəzərə alsaq ki, bu, nazir səviyyəsində ilk belə açıqlamadır, belə görünür ki, hökumət narahatdır, hansısa addımlar atmaq istəyir.***

- Bu artıq tendensiyadır. Bundan artıq nə ola bilər ki? Bu tendensiya cəmiyyətdə var idi, indi də məmurlar arasında yayılır. Ola bilər ki, yenə başqaları da belə addımlar atacaq.

***- Amma diplomatlar adətən ölkələrinə bağlı, vətənpərvər olurlar...***

- Yox, bu belə deyil, bu əksinədir. Diplomatlar bütün ölkələrdə belədir, gah o tərəfə, gah bu tərəfə keçirlər. Belə şeylər çox olub, xüsusən də sovet dönəmində belə faktlar olub ki, bir neçə diplomat Amerikaya, Britaniyaya qaçıb. Düşünürəm ki, burdakı rəzalət davam eləsə, bu proses də davam edəcək.

❑ **KƏNAN**

# Rusiya həm "sülh" deyir, həm silah verir...

## Kremldən Qarabağ məsələsinə "töhfə": Ermənistana 200 milyonluq silah, Azərbaycana odsaçan sistemlər...

**Bir müddət öncə Moskvanın Ermənistana 200 milyonluq silah-sursat verəcəyi ilə bağlı xəbərlər Azərbaycanda narahatlıq doğurmuşdu. Əslində Rusiya Cənubi Qafqazdakı forpostuna bu məbləğdə kredit verəcəyini demişdi, lakin ekspertlər sanksiyalar girdabında olan şimal qonşumuzun Ermənistana nağd pul əvəzinə, silah verəcəyini daha ağlabatan hesab edir.**

Bu arada Rusiya Azərbaycandakı narahatlığı səngitmək üçün növbəti gediş edib. Məlumata görə, Rusiya Azərbaycanın sifariş etdiyi BMP-3 piyada döyüş maşınlarının sonuncu partiyasını - 50 maşını yola salmağa hazırlaşır. Bu barədə Rusiyanın TASS rəsmi xəbər agentliyi hərbi-texniki əməkdaşlıq sferasındakı mənbələrə istinadən məlumat yayıb. Mənbə haqda Nijni Tagildə işə başlayan "Arms Expo-2015" hərbi sərgisi zamanı danışıb. **"Azərbaycana BMP-3 maşınlarının çatdırılması 2016-cı ildə başa çatacaq. Hazırda təxminən 50 maşından ibarət olan sonuncu partiyanın yola salınmasına hazırlıq gedir"** - mənbə deyib. Agentlik xatırladır ki, Rusiya Azərbaycanın sifariş etdiyi T-90S tanklarının çatdırılmasını da yekunlaşdırmaq üzrədir. "Rosoboroneksport"dan bildiriblər ki, Rusiya Azərbaycanın 2010-cu ildə sifariş etdiyi hərbi texnikanın və silahların çatdırılmasını 2017-ci ilədək tam yekunlaşdıracaq. KİV-lərin məlumatına görə, həmin müqaviləyə 3 batalyonu silahlandırmağa bəs edəcək T-90S tankları (100 tank) və eyni sayda BMP-3 daxildir. Həmçinin Azərbaycan Rusiyadan "Smerç" reaktiv yaylım atəşi sistemlərini, ağır odsaçan sistemləri və digər silahları alıb.

Virtualaz.org saytının məlumatına görə, bu müqavilənin davamı olaraq Azərbaycan Rusiyadan daha 100 T-90S tankı sifariş verib. Bunlar dünyanın ən güclü tankı hesab olunur. Həmçinin "Rosoboroneksport"dakı mənbələr deyiblər ki, hərbi sərgi çərçivəsində Azərbaycan Rusiyadan yeni T-90S tankları, reaktiv yaylım atəşi sistemləri və digər hərbi texnikanın alınmasına dair təkliflərini verib.

ATƏT-in Minsk Qrupunun həmsədri kimi Qarabağ münaqişəsinin guya tənzimlənməsi ilə məşğul olan Rusiya əslində işğalçıya nəinki öz yerini göstərmir, üstəlik, silahlanma ilə bağlı beynəlxalq kvotanın pozulması bahasına da olsa, Ermənistanı silahlandırır. Belə bir durumda paralel olaraq Azərbaycandan böyük pullar qoparmaq bahasına ölkəmizə silah satır.



**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a dedi ki, Rusiyanın Azərbaycanla hərbi əməkdaşlığı münaqişənin silahla çözülməsi üçün həyata keçirilən məkrli plan deyil:** "Hər halda, dünyaya hər il 32 milyard dollardan artıq silah və hərbi texnika satan bir ölkənin ixrac potensialına görə beynəlxalq sıralamada ilk yerləri tutması sübut edir ki, şimal qonşumuz bunu strateji bir kurs olaraq həyata keçirir və külli miqdarda qazanc götürür. Azərbaycan NATO üzvü olmadığından, üstəlik, bir sıra Qərb dövlətlərinin açıq qadağa qərarlarından sonra regionda təhlükəsizliyini təmin etmək istəyən ölkələrin, sizcə, hansı alternativ yolu qalır? Bununla bərabər, unutmaq olmaz ki, biz beynəlxalq siyasi arxitekturanı müəyyənləşdirmək üçün çox böyük hədəfləri qarşıya qoyan və iddialarla yaşayan dövlətlərin hərbi siyasətini deyil, sırf regional güc mərkəzi kimi ərazi bütövlüyünü təmin etməyə can atan bir tərəfin hərbi siyasətini yürüdürük. Yəni uzaqmənzilli raketlər və sualtı tankerlərlə silahlanmış, həmçinin müxtəlif qitələrdə hərbi bazalara malik olan dövlətlərdən fərqli olaraq Azərbaycan bu coğrafiyanın relyefinə, ərazi quruluşuna, qonşu dövlətlərin hərbi-siyasi potensialına və digər mühüm parametrlərə uyğun olaraq, müxtəlif texnika və texnologiyanın alınmasına dair qərar verir".

Əslində Azərbaycan orduna satılan BMP-3 və T-90s tankları, həmçinin "Smerç" reaktiv qurğuları dünyanın harasında satılsa, onu almaq bizim üçün prioritet olardı. O cümlədən SU-29 təyyarələri və müxtəlif döyüş vertolyotları da ölkəmizin hərbi gücünü artırır. Ona görə də Azərbaycanın Rusiya ilə hərbi əlaqələri Ermənistana gerçək zərbə vurur, onların müttəfiqliyini köklü bir şəkildə zədələyir, regionda hərbi-siyasi balansı bizim xeyrimizə tamamilə dəyişir. Qarşı tərəfə verilmiş 200 milyon dollar kredit borcdur, digər tərəfdən, erməni hökuməti onu elə qaz və enerji borcları şəklində geri qaytaracaq, üstəlik, Gümrüdə "İskəndər" raketlərinin heç bir modifikasiyası yerləşdirilməyib. Ona görə siyasi baxımdan da Azərbaycanın xeyrinə işləyən belə əməkdaşlıqdan imtina etmək və burada süni qərbpərəstlik ritorikası seçmək öz təhlükəsizliyindən imtina etmək demək olardı".

**Ermənistana edilən yardımlara gəldikdə, komitə üzvü bildirdi ki, bu, Qərblə nüfuz dairəsi uğrunda aparılan mübarizənin tərkib hissəsidir:** "Əks halda, Rusiya Cənubi Qafqazda mühüm bir platsdarmını itirər. Kreml tərəfindən İrəvana doğru atılan hər bir addımı əleyhimizə qəbul etmək yanlışdır. Çünki Moskvanın məxfi sənədlərində Ermənistanın hərbi təyinatı mühüm qovşaqda "cənub cinahı" kimi tövsif olunub və burada toplanan silah kütləsi Qərbə, həmçinin Türkiyəyə qarşıdır".

❑ **Cavid TURAN**



# Türkiyədə seçkidə saxtakarlıq xofu - kameralı seçki...

## Azərbaycanda da seçki məntəqələrində vebkameralar var, amma...

**Türkiyədə seçki məntəqələrinə müşahidə kameraları quraşdırıla bilər. Ölkənin müxalifət liderləri hakim partiya olan AKP-nin seçkilərdə saxtalaşdırma aparmaması üçün məntəqələrdə müşahidə kameralarının quraşdırılmasının tərəfdarıdırlar. CHP lideri Kamal Kılıçdaroğlu təklif edib ki, seçkilərin şəffaf keçməsi üçün bütün seçki qutularına kamera quraşdırmaq olar.**

Türkiyə müxalifətinin iddiasına görə, müşahidə kameraları quraşdırılarsa, seçkilərdə saxtakarlıqların qarşısı alınar.

Azərbaycanda isə seçki məntəqələrinə müşahidə məqsəd ilə vebkameralar hələ 2008-ci ildən etibarən quraşdırılır. 2008-ci il oktyabrın 15-də keçirilmiş prezident seçkiləri zamanı ölkədə 500 seçki məntəqəsində vebkameralar quraşdırılıb.

Bu kameralardan Mərkəzi Seçki Komissiyası (MSK) necə faydalanır?

**Məsələ ilə bağlı musavat.com-a MSK-nın üzvü Akif Qurbanov danışıb. O bildirib ki, məntəqələrdə quraşdırılan müşahidə kameralarının səsvermə ərəfəsində çəkdiyi görüntülər qanuna uyğun olaraq beş il saxlanılır:** "Hazırda Azərbaycanda 20 faiz seçki məntəqələrində vebkameralar quraşdırılıb. Bu, aşkarlığın təmin olunması məqsədilə həyata keçirilir. Ancaq onların quraşdırılmasında və tənzimləmə qaydalarında anlaşılmazlıqlar var. Qanunvericiliyin tələblərinə görə, seçki ərəfəsində vebkameralar tərəfindən çəkilən görüntülər beş il saxlanılmalıdır. Ancaq məsələ burasındadır ki, qayda pozuntusundan şübhə olduğu təqdirdə, seçkidə iştirak edən tərəflər bu görüntüləri əldə etmək üçün xeyli əziyyət çəkirlər. Hətta məhkəmə araşdırması zamanı da o görüntüləri əldə etmək mümkün olmur. Bu baxımdan nəticə etibarilə vebkameraların quraşdırılması formal xarakter daşıyır".

**A.Qurbanov Azərbaycanda seçki məntəqələrində vebkameraların hansı zərurətdən quraşdırılmasına da aydınlıq gətirib:** "MSK vebkamera quraşdırmaq ideyasını Gürcüstandan nümunə götürmüşdü. Orada müşahidə zamanı bunun şahidi olublar. Daha sonra isə bu təcrübəni Azərbaycanda reallaşdırdılar. Ancaq təəssüflər olsun ki, effektli olmadı. Proses artıq yeddi ildir ki, aparılır. Ölkədə vebkameralar quraşdırıldıqdan sonra bir referendum, iki prezident seçkisi, iki dəfə bələdiyyə seçkiləri keçirilib və ikinci parlament seçkilərinə hazırlaşırıq. Keçirilən seçkilər zamanı mən şahidi olmamışam ki, bu kameralardan şikayətin araşdırılması zamanı istifadə olunsun. Bunun ləğvi ilə bağlı da fikir səsləndirmək doğru olmaz. O baxımdan ki, vebkameraların olması da hər hansı bir problem yaratmır. Sadəcə olaraq, ictimai-piar nöqteyi-nəzərindən - ritorika üçün kameralar quraşdırıblar. Ancaq qeyd etdiyim kimi, faktiki olaraq bu kameralardan istifadə olunmur".

**Politoloq Fərhad Mehdiyev isə bildirdi ki, Türkiyədə tərəflər aldanmaların qarşısının alınması üçün israrlı şəkildə məntəqələrə müşahidə kameralarının qoyulmasını tələb edirlər:** "Əvvəlki zamanlarda Türkiyədə müşahidə kameralarına ehtiyac hiss olunmurdu. İndi isə saxtakarlığın kütləvi şəkil alacağından qorxulur. AKP çox istəyir ki, tək partiya olaraq hökumət qursun. Mənim bir dostum Türkiyədə seçkiləri müşahidə etmək üçün getmişdi. Orada heç vətəndaşın barmağına, ikinci dəfə səsvermənisi aşkarlamaq üçün nəzərdə tutulan xüsusi maddəni də vurmayıblar. Kameraların quraşdırılması da ölkənin siyasi mədəniyyətindən asılı olan bir haldır. Türkiyənin buna getməsi onu göstərir ki, onlar bu siyasi mədəniyyətin pozulmasından qorxurlar. Yaxud da artıq bu pozulub. Kameraların quraşdırılmasını önləyici addım hesab etmək olmaz. Amma insanların seçkilərdə iştirakı çox vacibdir. Əgər əksəriyyət seçkilərdə iştirak edərsə, saxtakarlıqların da qarşısı alınar. Əks halda, kamera da köməyə çatmayacaq. Azərbaycanda da seçicilər aktiv deyil. Əsas məsələ də budur".

**❑ Əli RAİS**

# "Heç bir narazılıq yoxdur, hamısı şayiədir"

## Siyavuş Novruzov: "Siyahını 1-2 günə açıqlayacağıq..."

**Gözləntilərə baxmayaraq, hakim Yeni Azərbaycan Partiyası (YAP) ötən gün də parlament seçkiləri ilə bağlı namizədlər siyahısını açıqlamadı. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzovla budəfəki söhbətimiz də siyahı və ümumilikdə seçki məsələləri ətrafında oldu.**

***- Siyavuş bəy, YAP-ın namizədlər siyahısının açıqlanacağı ilə bağlı deyilən növbəti gün də ötüb keçdi. Bu müəmmanın səbəbi nədir, siyahı ətrafında nə baş verir, deyə bilərsinizmi?***

-1-2 günə açıqlayacağıq. Yəni problem yoxdur, işləri yekunlaşdırmışıq.

***- Yəni siyahıdakı adlarla bağlı son nöqtə qoyulub?***

- Qoyulub, qoyulub, narahat olmayın. Eşidəcəksiniz, darıxmayın.

***- Heç olmasa növbəti seçki proseduru başlayan tarixə, sentyabrın 12-sinə qədər gözlənilirmi?***

- Bu həftə ərzində yəqin ki, açıqlanacaq.

***- 2010-cu il parlament seçkilərində hakim partiyanın namizədlər siyahısı 18 sentyabrda elan olunmuşdu. Bu dəfə də eyni hal təkrarlana bilərmi?***

- Bəli, o vaxt elə olmuşdu. Ancaq bu dəfə eyni hal baş verməyəcək. Vaxtında açıqlanacaq, problem yoxdur. Onsuz da 12-sindən tez imza vərəqələrini DSK-ya təqdim etməyə qanunla icazə verilmir. Bu baxımdan tələsməyə ehtiyac görmürük. Partiya tərəfindən lazım olan işlər görülüb. İmza toplayan şəxslər müəyyən olunub, onlar da öz dislokasiyasını müəyyənləşdirib. Hətta biz bu dəfə tapşırmışıq ki, dairənin bütün ərazisindən, ən azı 80 faizindən imza toplanılsın. Cəmi 450 imzadır, bunu lap bir kənddən də yığmaq olar. Amma biz bütün dairəni əhatə etmək göstərişi vermişik. Lap hər imza vərəqəsi bir kənddən yığılsa, daha yaxşı olar. Çünki bütün kəndlər imzavermə kampaniyasında iştirak etmiş olacaq. Bizə imza toplamaq üçün bir gün vaxt lazımdır. DSK təqdim olunan sənədlərə 7 gün müddətində baxacaq, ya təsdiq edəcək, ya hansısa düzəlişlər edib geri qaytaracaq. Ona görə də tələsməyə ehtiyac yoxdur. Həm də partiya bütün dairələrdə namizəd irəli sürdüyünə görə vahid seçki strategiyasını həyata keçirir. Odur ki, bizdə vahid seçki hesabı açılacaq, bu baxımdan da məsələ xeyli yüngülləşir. O cümlədən vahid plakatların buraxılması il bağlı artıq dizayn işləri qurtarıb. Namizədlərin fotoları təqdim olunandan sonra onların hamısının eyni formada, eyni şüarla plakatları buraxılacaq. Seçki proqramı, bukletlər, digər məsələlər də hazırdır, bir çapa verilməsi qalıb. Yəni biz kompleks şəkildə seçki elan olunana qədər bütün hazırlıq işlərimizi görmüşük. Sadəcə olaraq, prosedur qaydalara uyğun olaraq digər işləri davam etdiririk. Ona görə də siyahının hansı gün elan olunmasının bizimçün o qədər də əhəmiyyəti yoxdur.

***- YAP-ın maliyyə məsələləri sizə həvalə olunub. Sirr deyilsə, hakim partiya seçkilərdə təqribən nə qədər vəsait xərcləmək niyyətindədir?***

- Baxır da... Ümumilikdə partiyanın təbliği, ayrı-ayrı namizədlərlə əlaqədar vahid fond olacaq, ora maliyyə toplanacaq və bu maliyyədən də həm plakatların, bukletlərin



çapına, tədbirlərin keçirilməsinə sərf olunacaq.

***- Təqribi bir rəqəm deyə bilərsinizmi?***

- Fondun formalaşmasının aşağıdakı yolları var: birincisi, partiya tərəfindən qoyulan vəsait, ikincisi, namizədlərin şəxsi vəsaiti, üçüncüsü, vətəndaşların, seçicilərin maliyyə dəstəyi, dördüncüsü isə hüquqi şəxslərin dəstəyi. Biz adətən hüquqi şəxsin dəstək göstərməsinə çalışmırıq. Çünki orda detallar çoxdur, onun vergiləri ödəyib-ödəmədiyi və başqa məsələlər var, uzun məsələdir.

***- Qısası, YAP-ın seçki fondunun vəsaiti 1 milyard manat ətrafında ola bilərmi?***

- Yox. Qanunvericiliyə görə, hər bir namizəd üçün maksimum hədd təxminən 500 min manatdır. Ancaq 500 minlik təbliğata da ehtiyac yoxdur. Azərbaycanda bir çox ölkələrdən fərqli olaraq təbliğat-təşviqat işi dövlət televiziyası və qəzetlərində ödənişsiz həyata keçirilir. Həmçinin görüşlər üçün ayrılan yerlərə pul sərf olunmur. Sadəcə, hər bir namizədin özü üçün təbliğat materiallarını buraxması məsələsi qalır ki, bu da böyük vəsait tələb etmir. Mən dəfələrlə prezident, parlament və bələdiyyə seçkilərində maliyyə məsələləri ilə məşğul olmuşam, bilirəm ki, Azərbaycanda o qədər də böyük maliyyəyə ehtiyac yoxdur.

***- Siyavuş bəy, yenə siyahı müəmmasına qayıdaq. Bizə demişdiniz ki, YAP İdarə Heyətinin toplantısı keçiriləcək və yekun qərar veriləcək. Toplantı keçirildimi və partiya sədri son sözünü dedimi?***

- Yenə deyirəm ki, bunlar hamısı İdarə Heyətinin iclasında olacaq. Cənab prezident, partiya sədri də İdarə Heyətinin üzvüdür, İdarə Heyətinin iclaslarına rəhbərlik edir. O baxımdan da İdarə Heyətinin hər hansı toplantısı keçirilirsə, özü iştirak etmədiyi təqdirdə partiyanın sədr müavinləri, icra katibi bu iclaslara rəhbərlik edir və prezidentin tapşırıq və tövsiyələrini çatdırır. O baxımdan İdarə Heyətində bu məsələlərin hamısı aydın şəkildə müzakirə ediləcək və son qərar qəbul olunacaq.

***- Deməli, hələ siyahı ilə bağlı son qərar yoxdur?***

- Yenə deyirəm, qərarı səlahiyyətli orqan verə bilər. Yəni partiyanın rəhbər orqanları qurultay, Siyasi Şura, İdarə Heyətidir. Bizdə də qərar İdarə Heyətində qəbul olunacaq. İdarə Heyəti qərar qəbul etmədən İdarə Heyətinin üzvü kimi, mən, digərləri hər hansı bir fikir söyləyə bilmərik. Çünki qərar səsvermənin nəticəsi ilə qəbul olunur. Əgər səsvermə yoxdursa, o təsdiq olunmayıbsa, biz bu barədə heç bir söz deyə bilmərik. Qərar olandan sonra artıq bu açıqlanır.

***- Siyahı ilə bağlı narazılığın olması barədə xəbərlərin isə ardı-arası kəsilmir...***

- Heç bir narazılıq yoxdur, bunlar hamısı şayiələrdir. Hətta bəzi mətbuat orqanları da YAP-ın adından düzgün olmayan informasiya vermişdi, sonra təkzib də verdilər. Mən keçən dəfə də demişdim, ola bilməz ki, kimsə bu siyahı ilə bağlı informasiya versin. Adamın özünün məlumatı yoxdursa, hansı informasiyanı verə bilər?

***- Bəs qocaman YAP-çıların narazılığı, giley-güzarı? Əli Əlirzayev dedi "gedib sorğu keçirsinlər, görsünlər mən çox səs alıram, ya özləri". Bu barədə nə demək olar?***

- Bununla bağlı biz dəfələrlə mətbuata da demişik ki, hələ seçki elan olunmazdan 3-4 ay qabaq tədqiqat işləri aparmışıq. Həm deputatlarımızla, həm keçmişdə deputat olub indi olmayanlarla, həm gənc partiya fəalları ilə əlaqədar bütün rayon və şəhər təşkilatlarında tədqiqatlar aparılıb. O cümlədən hər rayondan Bakıda olan tanınmış şəxslər, ziyalılarla bağlı məlumatları toplamışdıq. Yəni YAP siyahıya kimisə daxil edirsə, bunu havadan götürmür. Bununla bağlı biz aylarla tədqiqatlar apardıq. Əli müəllim də iki dəfə Milli Məclisə deputat seçilib. Həm proporsional, həm majoritar qaydada namizədliyi irəli sürülüb. Üçüncü dəfə İqbal Ağazadə ilə rəqib olub, nəticəsi bəllidir...

***- Deyir mən niyə cəmi iki dəfə seçilirəm, amma başqaları on dəfə?***

- O sualı bizə yox, özünə versin.

***- Şahlar Əsgərov və Eldar Sabiroğlunun dediklərinə nə sözünüz var?***

- Şahlar Əsgərov da iki dəfə deputat seçilib. Eldar Sabiroğlu isə bir dəfə proporsional qaydada seçilib, ikinci dəfə parlamentə namizədliyi rəsmi şəkildə irəli sürülüb, ancaq alınmayıb. Bütün bu məsələləri bir-birinə qatmaq lazım deyil. Şahlar Əsgərov başqadı, Eldar Sabiroğlu da başqa. Tutalım ki, Əli Əlirzayev "91-lər"in üzvüdür, YAP-ın yaradıcılarından biridir. Onunla Eldar Sabiroğlu eyni deyil, fərqli-fərqli yanaşmalardır.

***- Bir məlumat da var ki, rektorlar artıq "ya mandat, ya vəzifə" seçimini də ediblər. Bunu da təsdiqləmirsiniz?***

- Bunlar hamısı şayiədir. Bütün bunlar hamısı qərar qəbul olunanda bilinəcək.

***- Yəni gələn həftəni gözləyək?***

- İnşallah, məlumat olan kimi YAP-ın saytında yerləşdiriləcək.

**❑ Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015



# Azərbaycanda kitabı niyə zibilliyə atırlar?

**Bir neçə gün əvvəl paytaxtın Yasamal rayonunda, “İnşaatçılar” metrosunun yaxınlığında yüzlərlə kitab zibil yeşiyinə atılıb. Zibil yeşiyinə atılan kitablar arasında Səməd Vurğun, Cəlil Məmmədquluzadə, Nizami Gəncəvi, Anar və digər ədiblərimizin kitabları, elmi ədəbiyyatlar, habelə ensiklopediya cildlikləri yer alıb.**

Bu kitabların zibil yeşiklərinə atılması ictimaiyyət tərəfindən birmənalı qarşılanmayıb. Xatırladaq ki, sovet dönəmində kitabsız ev təsəvvür etmək çətin idi. Hətta elə kitablar vardı ki, əl-əl gəzirdi. İnsanlar evlərindəki kitabxanaların zənginliyi ilə fəxr edirdi.

20-25 il bundan əvvəl, demək olar ki, hər kənddə, qəsəbədə heç olmasa bir kitabxana var idi. Rayon mərkəzlərində isə bir neçə kitabxana və kitab mağazaları olurdu. İndi isə əvvəllər kitab mağazası kimi fəaliyyət göstərən yerlər təyinatını dəyişib. Eyni sözü kitabxanalar barədə də demək olar. İndi gənclərdən kitab oxumamaqlarının səbəblərini soruşduqda onlar istədikləri kitabı internet vasitəsilə oxuduqlarını bildirirlər.

**“XXI əsr” Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev internet resurslarının kitabı heç vaxt əvəz edə bilməyəcəyini dedi:** “Bütün tanınmış intellektuallar, alimlər açıq şəkildə etiraf edirlər ki, internet resursları heç vaxt kitabı əvəz edə bilməyəcək. Kitab başqa fəlsəfəyə malikdir. Kitaba münasibət məsələsi sovetlər süquta uğradıqdan sonra başladı. Bakı şəhərinin hər tinində böyük bir kitab mağazası var idi. İndi o kitab mağazalarının yerində ticarət obyektləri var. Bakı şəhərinin təkcə mərkəzində olan kitab mağazalarının 90 faizi yerlə yeksan olundu. Bu yaxınlarda Sumqayıtda idim və mən orada bir dənə də olsa kitab mağazası tapa bilmədim. Kim ki deyir hər şey internetdə var, bilin ki, o adamlar çox savadsız və kitab oxumağa meylli olmayan adamlardır. Qalan kitab şəbəkələrinə, ”Əli və Nino" kitab mağazasına diqqət etsəniz görərsiniz ki, tanınmış kütlə kitab almır. Bu mənada da demək olar ki, kitab artıq gözdən düşüb. Kitab gözdən düşdüyünə görə kitabları zibil yeşiklərinə atırlar. Kitab müqəddəs bir dəyərdir və ona toxunmaq olmaz".



**Etibar Əliyev:**
“Kitaba hörməti və sevgisi olmayan ölkələrdə kitablar zibil yeşiklərinə atılır”



**Rəşad Məcid:**
“İnsanlar görürlər ki, kitab oxuyan adamla oxumayan adamın fərqi yoxdur”

**E.Əliyev kitaba münasibətin gələcəkdə də müsbət istiqamətə dəyişəcəyinə inanmadığını bildirdi:** “Bundan sonra kitaba münasibətin pozitiv istiqamətə dəyişəcəyinə inanmıram. Bütün böyük elmi əsərlərin, istər elmi ədəbiyyat, istər populyar, bədii ədəbiyyatın heç birini elektron resurslardan oxumaq mümkün deyil. Kitab oxuyan ölkələrin heç birində kitaba münasibət dəyişməyib. Yalnızca kitaba hörməti və sevgisi olmayan ölkələrdə kitablar zibil yeşiklərinə atılır. Bir məqam da var ki, orta və yaşlı nəsil də artıq kitab oxumur. Orta və yaşlı nəslin kitaba münasibəti mənfidirsə, gənclərin də münasibəti mənfi olacaq. Akademiklər, professorların ya şəxsi kitabxanaları yoxdur, ya şkaflarında 5-6 kitab var. Bunun özü də kitaba laqeyd münasibətdir. Əgər kitabı zibil qutusuna atarkən oradan keçən hansısa ağıllı adam onların bu hərəkətinə ”dayan" desəydi, bu, dayandırıla bilərdi. Buradan da görünür ki, kitaba həvəs o formadadır ki, heç kim bu məsələyə reaksiya verməyib".

**Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid gənc nəslin daha çox kompyüterdən kitab oxumağa üstünlük verdiyini dedi:** “Kiril əlifbası ilə çıxan çoxlu sayda kitablar var ki, onları yeni nəsil oxuya bilmir. Ona görə də evlərdə yük olmasın deyə bu kitablar atılır. Həmçinin yaşlı insanların evində o qədər köhnəlmiş sovet ideologiyasına xidmət edən kitablar var ki, yeni nəsil onları gərəksiz hesab etdiyinə görə tullayır. Ümumiyyətlə isə yeni nəslin kitaba marağının azlığı ciddi problemdir. Bununla bağlı biz həmişə demişik ki, faciəvi bir haldır ki, Azərbaycanın bir sıra rayonlarında kitab mağazaları yoxdur. Gənclərin kitab oxumağa marağının az olmasının da səbəbləri var. İnsanlar görürlər ki, kitab oxuyan adamla kitab oxumayan adamın fərqi yoxdur. Kitab oxuyan adam cəmiyyətdə o qədər də uğur qazana bilmir, xırda-xuruş maaşla akademiyada yaxud digər müəssisələrdə müəllim kimi işləyir. Kitab oxumayan isə hər hansısa ticarət, biznes sahəsində uğurlar qazanır. Amma ümumi götürəndə son 5 ildə cavanların kitaba marağı xeyli dərəcədə artıb. Biz kağız kitaba öyrəşmişik və sevirik. Kitabı kağız variantdan oxumağa üstünlük veririk. Amma yeni nəsil üçün də elektron variantda oxumaq o dərəcədə zövqverici və xoş bir prosesdir. Mən hansı formada olur-olsun əsas oxumağa üstünlük verirəm. Mən özüm də hərdən kompyüterdə kitablar oxuyuram və insan getdikcə buna adət edir. Əsas məsələ hansı formada oxumaqda deyil, əsas odur ki, oxusunlar”.

❑ **Günel MANAFLI**

# Ədəbiyyatımızda yeni nəsil köhnələrə qarşı...

## Gənc şairin dedikləri etiraz doğurdu; Salam Sarvan da Mirzə Ələkbər Sabiri hədəfə aldı

**Gənc yazar Kəramət Böyükçölün Bəxtiyar Vahabzadə və Əhməd Cavad haqqındakı fikirləri ciddi etiraz doğurub. O, hər iki şairin yaradıcılığının zəif olduğunu bildirib. Xüsusilə onun şair atası Qəşəm Nəcəfzadənin oğlunu müdafiə etməsi yaranan narazılığı daha da dərinləşdirib. Gənc şairi tənqid atəşinə tutanlar, müdafiə edənlərdən çoxluq təşkil edirlər.**

**Tanınmış şair Salam Sarvan** gənc şairi müdafiə edib. O, sosial şəbəkələrdə paylaşdığı statusda K.Böyükçölün fikirlərinin tam doğru olduğunu bildirib: “Sözü deyəndə birbaşa deyin, burcutmayın. Kəramət Böyükçölün Bəxtiyar Vahabzadə və Əhməd Cavad haqda fikirləri yüzdə yüz düzdü. Özü də heç kəsi təhqir etmədən deyib. Mən cavanlıqda xarratlıqla məşğul olmuşam deyə, ağacları bir-birindən ayıra bilirəm. Sonra yaradıcılıqla məşğul olduğumdan yazını da tanıya bilirəm. Yəni Kəramətin o fikirlərində hətta ironiya da yox idi. Yaxşı, bunları buraxın bir yana, keçək Mirzə Ələkbər Sabirə...

Əziz həmvətənlər, əgər dostlarımızdan biri Əhməd Cavad haqda qəti bir fikir deyibsə, deməli, o arxayındır düşüncələrində, yəni onu axıracan oxuyub. İndi mən sizə desəm ki, Mirzə Ələkbər Sabir bizə təqdim olunduğuna rəğmən talantsız və faydasız şair olub, o dəqiqə məni söyməyə girişməyin. Əvvəla, mənim kimi zəhmət çəkib, Sabiri axıracan oxuyun. Oxuduz? Hə, indi qayıdın ilk səhifəyə və təzədən oxumağa başlayın. Bu zaman baş barmağınızı şəhadət barmağınıza birləşdirin. Vəssalam, qalanı ilə işiniz olmasın, öz-özünə çırtma alınacaq. Və siz Sabiri oxumağa davam etdikcə, bu dəhşətli çırtma səslərini eşidəcəksiz.



**Almaz Əliqızı:**
“Bu sözləri demək vicdansızlıqdır”



**Seyran Səxavət:**
“Onların biletlərini zaman verib”

Ona görə də biz deyəndə ki, Mirzə Sabirin də yaradıcılığı aldanışdı, biz deyəndə ki, indiki meyxanaçılar onun düşünüb yazdığını indi bədahətən deyə bilirlər, əsəbləşməyin".

**BDU-nun professoru Almaz Əliqızı dövlət himnini yazan bir şairə “zəif” deməyin vicdansızlıq olduğunu bildirdi:** “Nə Əhməd Cavad, nə də Bəxtiyar Vahabzadə zəif şair deyil. Dövlətimizin himnini yazan bir şairə zəif demək olar? Azərbaycanın istiqlalına, müstəqilliyinə, üçrəngli bayrağına ən gözəl şeirləri Əhməd Cavad yazıb. O, elə bir sənətkar idi ki, zamanında diri ikən əyninə kəfən geyinib, yalın yumruqları ilə zülmün qapısını döyəcləyirdi. Bunu hər adam bacarmazdı, amma Əhməd Cavad bacardı. Ölümünün axırlarına yaxın ”Susmaram" şeirini yazdı. Onun ən sonuncu şeiri budur. Ona deyirdilər ki, heç olmasa, həyatının sonlarında sus. Amma vətən sevgisi ona susmağa imkan vermirdi. Belə şairə zəif demək ən azından vicdansızlıqdır. Yaxud Bəxtiyar Vahabzadə olsun. 60-70-ci illərdə şəxsiyyətə pərəstiş dövründə “Gülüstan” poemasını yazan, millətə, torpağa canı ilə bağlı olan bir insan haqqında da bu sözləri demək vicdansızlıqdır. Daim gəncliyin tərəfində olmuşam. Amma gənclər də bilməlidir ki, onların yaradıcılığı şəxsiyyət vəsiqələridir. Kimlər də nə deyirsə desin, boş şeylərdir".

**Yazıçı Seyran Səxavət isə bu cür mövzuları gündəmdə saxlayan mətbuatı tənqid atəşinə tutdu:** “Bu tipli məsələlər neçə ildir gündəmdədir. Təkcə ədəbiyyatı əhatə etmir. Bu məsələni gündəmdə saxlayan mətbuata deyirəm ki, sizlər belə etməklə, həmin şəxslərə işlərini davam etdirməyə rəvac verirsiniz. Gələcəkdə də bütün sahələrə müdaxilə edəcəklər. Bunlara ən yaxşı cavab susmaqdır. Bu cür suallara cavab verməkdən artıq bezmişəm. Məni təəccübləndirən odur ki, mətbuatın başqa iş-gücü yoxdur. Kim nə deyirsə desin, əsas sözü tarix deyir. Hər şairin, alimin öz yeri var. Onların biletlərini zaman verib. Bunlar ancaq zamanın kassalarında satılan biletlərdir. Hərə özünə uyğun dəvətnamə yaxud bilet alır. Sabiri bəyənməyən kimi, nəsə olur ki? Dərdlərimiz çoxdur. Belə işlər boş şeylərdir. Ən yaxşısı tədqiq etməkdir. Hər deyilən sözə reaksiya vermək lazım deyil. Ondan sonra görəcəksiniz ki, susacaqlar. Çünki özləri deyib, özləri eşitdiklərini görəcəklər. Ən gözəl yolu budur”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Ermənistan rəhbərliyi, xaricdəki erməni lobbisi Dağlıq Qarabağın və Azərbaycanın digər ərazilərinin işğalına haqq qazandırmaq üçün 25 ildir hər cür oyundan çıxmaqdadır. Düşmən toplum, onun siyasi elitası, xaricdəki diasporu bu yöndə illərdir həm də belə bir faşist, ksenofobik tezisdən çıxış edib beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar ki, guya Azərbaycan və erməni xalqları daha heç vaxt bir yerdə dinc-yanaşı yaşaya bilməz, odur ki, onların məntiqincə, yeganə çıxış yolu separatçı rejimin müstəqilliyini tanımaqdır.**






# Azərbaycan döyüş təlimləri keçə-keçə hərbi parkını modernləşdirir

## Bakının müasir döyüş maşınları və sistemlərini həm də Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyadan almaqda davam etməsi işğalçını ciddi narahat edir; ölkəmizin düşmən üzərində əzici hərbi-iqtisadi üstünlüyü artmaqdadır...

Bu da növbəti fakt. Gürcü informasiya qaynaqlarının məlumatına görə, az öncə Gürcüstandakı erməni ictimai təşkilatları və erməni apostol kilsəsinin yeparxiyasının təşkilatçılığı ilə erməni əsilli gənc Gürcüstan vətəndaşları işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər ediblər. Orada onlar Azərbaycanın dövlət atributlarını, o cümlədən bayrağını təhqir edib, üstəlik, bu vandalist hərəkətləri əks etdirən faktları, fotoları paylaşıblar.

Artıq məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi öz sərt mövqeyini açıqlayıb. Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin yaydığı açıqlamada Azərbaycanın Respublikasının dövlət atributlarının, o cümlədən bayrağının təhqir edilməsinin yolverilməz olduğu bildirilməklə yanaşı, Ermənistan və erməni diaspor təşkilatları irqçi meyli siyasətə son qoymağa çağırılır (APA).

**XİN yetkilisinin sözlərinə görə, mənəvi və etik çərçivədən kənar olan bu kimi davranış bir daha onu göstərir ki, Ermənistan və erməni diaspor təşkilatları tərəfindən gənclər arasında irqi ayrı-seçkilik, ksenofobiya, etnik nifrət, "ASALA" terrorçularından "qəhrəman" obrazının yaradılması, terrorizm və ekstremizmin ideoloji təbliğatı siyasəti aparılır:** "Bir müddət əvvəl Ermənistanın sabiq prezidenti Robert Köçəryan erməni və Azərbaycan xalqlarının etnik uyğunsuzluğu barədə rasizm xarakterli fikirlər söyləmiş, Ermənistan prezident Serj Sərkistyan isə erməni gənclər qarşısında çıxış edərək, ermənilərin "üstün genetik xüsusiyyətləri" və qonşu dövlətləri nəzərdə tutaraq, erməni gəncləri qarşısında "tarixi erməni torpaqları"nı azad etmək kimi missiyanın durması barəsində çağırışlar etmişdi".

**XİN sözçüsü əlavə edib ki, Ermənistanda dövlət səviyyəsində irqi ayrı-seçkilik, ekstremizm və terrorizm əsasında aparılan bu kimi ideoloji təbliğat, gənc nəsil, o cümlədən diasporda olan gənclərin bu ruhda tərbiyə edilməsi və erməni apostol kilsəsinin yeparxiyasının da bu proseslərdə iştirakı bütün regionu ciddi potensial təhlükələr qarşısında qoyur:** "Ermənistan və erməni diaspor təşkilatları rasizm meylli bu təhlükəli siyasətə son qoymalı, gənc nəsli radikalizm, ekstremizm və terrorizm meyllərindən çəkindirməli və qonşu xalqlar və dövlətlərlə barışığa, dostluğa və sülhə səsləyən siyasət yürütməlidir".

***

Təbii ki, düşmən tərəfdə davam edən bu faşist, ifrat millətçi və antitürk ovqatını və isteriyasını ciddiyə alan Azərbaycan üçün öz torpaqlarını azad eləməyin yeganə yolu silahlı qüvvələrini gündən-günə gücləndirmək, onun hərbi parkını ən müasir döyüş maşınları və qabaqcıl hərbi texnologiyalar hesabına modernləşdirməkdir.

Bakının bu istiqamətdə əməkdaşlıq elədiyi dövlətlərdən biri isə nə qədər qəribə də görünsə, Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyadır. İrəvanın narazılıqlarına rəğmən, son illər iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq yetərincə uğurlu inkişaf edir. Çünki bu, hər iki tərəfin maraqlarına cavab verir.

Bugünlərdə - Azərbaycanın 65 minlik ən iri təlimlərinin ölkə boyu davam elədiyi vaxtda bəlli olub ki, Rusiya Bakının sifariş etdiyi BMP-3 piyada döyüş maşınlarının sonuncu partiyasını - 50 maşını yola salmağa hazırlaşır *(virtualaz.org).* Rusiyanın TASS rəsmi xəbər agentliyi hərbi-texniki əməkdaşlıq sferasındakı mənbələrə istinadən belə məlumat yayıb. Mənbə bu barədə Nijni Tagildə işə başlayan "Arms Expo-2015" hərbi sərgisi zamanı danışıb.

"Azərbaycana BMP-3 maşınlarının çatdırılması 2016-cı ildə başa çatacaq. Hazırda təxminən 50 maşından ibarət olan sonuncu partiyanın yola salınmasına hazırlıq gedir" - mənbə deyib. Agentlik xatırladır ki, Rusiya Azərbaycanın sifariş etdiyi T-90 S tanklarının çatdırılmasını da yekunlaşdırmaq üzrədir.

"Rosoboroneksport"dan bildirilib ki, Rusiya Azərbaycanın 2010-cu ildə sifariş etdiyi hərbi texnikanın və silahların çatdırılmasını 2017-ci ilədək tam yekunlaşdıracaq. KİV-lərin məlumatına görə, həmin müqaviləyə 3 batalyonu silahlandırmağa bəs edəcək T-90S tankları (100 tank) və eyni sayda BMP-3 daxildir. Həmçinin Azərbaycan Rusiyadan "Smerç" reaktiv yaylım atəşi sistemlərini, ağır odsaçan sistemləri və digər silahları alıb.

Bu müqavilənin davamı olaraq Azərbaycan Rusiyadan daha 100 T-90S tankı sifariş verib. Bunlar dünyanın ən güclü tankı hesab olunur. "Rosoboroneksport"dakı mənbələr deyiblər ki, srağagün başlayan hərbi sərgi çərçivəsində Azərbaycan Rusiyadan yeni T-90S, tankları, reaktiv yaylım atəşi sistemləri və digər hərbi texnikanın alınmasına dair təkliflərini verib.

***

Əlbəttə ki, Ermənistan da Rusiyadan yeni silahlar alır və bunu Kremlin ayırdığı 200 milyon dollarlıq güzəştli kredit hesabına edir. Rusiya müdafiə sənayesindəki mənbələrə görə, Ermənistana modernizə olunmuş T-73B3 tankları, tank əleyhinə raket sistemləri, BMP-2 döyüş maşınları üçün modullar göndəriləcək.

Müqayisə üçün qeyd edək ki, Ermənistana güzəştli qiymətə veriləcək silahlar Azərbaycanın son illərdə Rusiyadan aldığı və yeni sifariş etdiyi silahlarla müqayisədə həm döyüş imkanlarına, həm miqdarına görə müqayisə oluna bilməz. Azərbaycan Rusiyadan yeni tanklar, reaktiv sistemlər və digər hücum silahları sifariş verməklə Ermənistan üzərində əldə etdiyi əzici hərbi üstünlüyü qoruyub saxlamaq istəyir.

Başqa yol əslində qalmayıb. Danışıqlar masası arxasında işğalçı tərəfi konstruktiv mövqe tutmağa, ram eləməyə vadar etmək üçün Azərbaycan düşmən üzərində nəinki iqtisadi, həm də əzici hərbi üstünlüyünü saxlamağı daim özünün prioritet saymalıdır.



# Rayonlarımıza zirehli döyüş texnikası göndərildi

**Azərbaycan Müdafiə Nazirliyinin keçirdiyi Komanda Qərargah Hərbi Oyunlarının növbəti mərhələsində irimiqyaslı təlimlərdə iştirak edən müxtəlif tipli hərbi texnikanın müəyyən edilən marşrutlar üzrə planlı şəkildə daşınması həyata keçirilib.**

Müdafiə Nazirliyinin saytının yaydığı xəbərə görə, "Həyəcan" siqnalı ilə qaldırılan hərbi hissələrin zirehli döyüş texnikaları toplanma rayonlarına çıxarılaraq hərbi daşınmaların tələblərinə uyğun, müəyyən edilmiş normalara riayət edilməklə müvafiq istiqamətlər üzrə qısa müddətdə təlim bölgələrinə çatdırılıb.

Azərbaycan Respublikasının Prezidentì yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Sentyabrın 10-da Avropa Parlamentində Azərbaycandakı vəziyyətlə bağlı müzakirələr qətnamənin qəbulu ilə başa çatıb. Qətnaməni Avropa Parlamentindəki bütün siyasi partiyalar dəstəkləyib. Səsverməyə qatılan 365 nəfərin 202-si qətnaməyə səs verib.**

# Avropa Parlamenti Azərbaycana sanksiyalar tətbiq etməyə çağırdı

## Səsverməyə qatılan 365 nəfərin 202-si hakimiyyəti tənqid edən qətnaməyə səs verib; **Qabil Hüseynli:** "Sabitliyi pozmaq istəyən qüvvələr var"



Qətnamədə Azərbaycanda repressiyaların miqyasının artdığı, həbs olunan jurnalistlərin və hüquq müdafiəçilərinin sayının çoxaldığı bildirilir. Onların dərhal və qeyri-şərtsiz azad olunmasına çağırış yer alır.

Sənəd həmçinin Avropa Komissiyası ilə üzv ölkələri Azərbaycanda davam edən təqiblərə güclü və birgə cavab verməyə, habelə siyasi təqiblərdə əli olan hakimlər, rəsmilər və siyasətçilərə qarşı sanksiya və viza qadağası məsələsinə baxmağa çağırır.

Qəbul olunmuş qətnamənin layihəsini Avropa Parlamentinə liberal-demokratlardan ibarət fraksiya (ALDE qrup) hazırlayıb. Son anda sənəd AP-dəki bütün fraksiyalar adından müzakirəyə təqdim edilib.

Qətnamə layihəsinin mətni sentyabrın 10-da Avropa Parlamentinin saytında yerləşdirilmişdi. Layihənin müəllifləri qeyd edirdilər ki, sənədi hazırlayarkən Avropa Parlamentinin Azərbaycanda insan haqlarının vəziyyətinə dair əvvəlki qətnamələrini; Avropa İttifaqı, Avropa Komissiyası, Avropa Şurası və s. qurumların rəhbərlərinin bu ölkədəki repressiyalarla bağlı son dövrlərdə verdikləri bəyanatları; həmçinin Leyla və Arif Yunuslar, Xədicə İsmayılovanın barəsindəki hökmlə bağlı beynəlxalq rəyləri; Avropa İttifaqı ilə Azərbaycan arasında 1999-cu ildən qüvvəyə minmiş münasibətləri, o cümlədən Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı proqramları çərçivəsində əməkdaşlığı nəzərə alıblar.

Qətnamənin 17-ci bəndində deyilirdi ki, Avropa Parlamenti Avropa İttifaqı Şurasını Azərbaycanda insan haqlarının pozulmasına görə məsuliyyət daşıyan şəxslərə qarşı ünvanlı sanksiyaların mümkünlüyü məsələsinə baxmağa çağırmalıdır.

18-ci bənddə vurğulanırdı ki, Avropa Parlamenti Azərbaycan hökumətini ATƏT-in Bakı ofisinin qapadılmasına dair qərarını ləğv etməyə və bu təşkilatla tam əməkdaşlığa çağırmalıdır.

Qətnamə layihəsinin müəllifləri 21-ci bənddə bəyan edirdilər ki, Avropa Parlamenti Avropa İttifaqına üzv dövlətləri, həmçinin Avropa Xarici Siyasət İdarəsini Azərbaycandakı seçkini müşahidə etməkdən çəkinməyə çağırmalıdır. Çünki ölkə hazırkı şərtlər altındaykən istənilən müşahidə missiyası mənasızdır və çox ciddi qüsurları olan seçki mühitinin legitimləşdirilməsinə xidmət etməkdən başqa bir şey olmayacaq.

Bəzi ekspertlər hesab edir ki, bu qətnamə və indiyə qədər verilən bəyanatlar seçkilər öncəsi Azərbaycan hakimiyyətinə edilən təzyiq vasitələrindən biridir.

**Politoloq Qabil Hüseynli hesab edir ki, seçkilər öncəsi sabitliyi pozmaq istəyən qüvvələr var:** "Seçki öncəsi Azərbaycanda etirazları qızışdırmaq, sabitliyi pozmaq istəyən qüvvələr var. İndiyə qədər bir sıra bəyanatlar verdilər, fikirlərini çatdırdılar. Hətta Azərbaycanı Avropa Şurasından çıxarmaqla hədələdilər. Yenidən ocağın üstünə benzin tökməyin nə mənası var? Bəyanatlar, çıxarılan Avropa Parlamentinin qərarları ölkə iqtidarı tərəfindən qəsdən edilən qərarlar kimi qəbul olunur. Azərbaycan iqtidarı ilə bu dildə danışmaq olmaz. Diplomatik səviyyələrdə dialoq qurub, problemlərin həll yollarını axtarmaq lazımdır. Gah Avropa Parlamentində, gah Dövlət Departamentində, gah da Avropa Şurasında bu məsələləri müzakirəyə çıxarmaqla, meydan daha da qızışdırılır. Nəticədə həbsdə olan insanlar da əziyyət çəkirlər. Onları həbsdən çıxarmaq üçün bu yolların perspektivsiz olduğu ortaya çıxır. Avropa Parlamentində bu məsələləri müzakirə etməkdənsə, ABŞ-ın Suriya, İraq və digər yerlərdə törətdiyi qırğınlar nəticəsində həyatını itirən yüz minlərlə insandan danışmaq daha yaxşı olardı. Bu mövzu daha aktualdır. Təbii ki, Azərbaycanla bağlı da nələrisə söyləmək olar".

**Q.Hüseynli xarici siyasi qurumların artıq qırmızı xətti keçdiklərini də qeyd etdi:** "Onlar qırmızı xətti keçərək, sanki Azərbaycan iqtidarını hövsələdən çıxarıb əsəbiləşdirmək istəyirlər. Bu yolu qəbul etməkdə çətinlik çəkirəm. Bu təzyiqlər şifahidir. Avropa Azərbaycan üçün elə də ciddi işlər görmür. Azərbaycan onların etdiyi təzyiqlərə əhəmiyyət vermir, öz işini görür. Ölkənin idarə edilməsi sahəsində uğurlu addımlar atılır. Seçkilərlə bağlı təbii ki, müəyyən fikirlər səslənəcək, nöqsanlar göstəriləcək. Amma Azərbaycan hər beş ildən bir bu cür seçkilər keçirir. Həmişə onlar deyirdilər ki, bu seçki demokratiya yolunda bir addım irəlidir. Azərbaycanın üzərinə bu cür gəlmək çətin anlaşılır".

**Politoloq bu cür qərarların verəcəyi nəticələrdən də söz açdı:** "Münasibətlər kəskinləşəcək. Onsuzda əvvəllər də münasibətlər səmimi deyildi. Avropa Birliyi Azərbaycana səmimi münasibət bəsləmir. Əlaqələrin normal olması arzuedilməzdir. Ancaq onlar bu münasibətləri pozmaq istəyirlərsə, özləri də əziyyət çəkə bilərlər. Çünki Azərbaycan Avropa ölkələrinin əsas enerji ixracatçısıdır. Onlar qaz, neft üçün gözlərini Azərbaycana dikiblər. Bundan da maksimum yararlanırlar".

❑ **Cavanşir ABBASLI**

# Səfər Əbiyevin müavininin məhkəməsi gələn həftəyə qaldı

**Sentyabrın 10-da Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan müdafiə nazirinin keçmiş müavini Mehman Səlimovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Zeynal Ağayev sədrlik edib.

Prosesdə məhkəmə baxışının sentyabrın 18-nə təyin edildiyi elan olunub. Qeyd edək ki, Mehman Səlimov ötən ilin noyabr ayında həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb və barəsində həbs-qətimkan tədbiri seçilib.

Mehman Səlimov 1995-1999-cu illərdə müdafiə nazirinin siyasi və ictimai işlər üzrə müavini vəzifəsində işləyib.

Qeyri-rəsmi məlumatlara görə, son illər bizneslə məşğul olub.

Mehman Səlimovun işdən çıxarılmasının səbəbi kimi onun Baş Qərargah rəisi Nəcməddin Sadıqova qarşı mətbuatda səsləndirdiyi ittihamlar göstərilir.

M.Səlimov 1999-cu ildə mətbuata verdiyi açıqlamalarda Nəcməddin Sadıqovun ünvanına kəskin ittihamlar səsləndirmişdi. O, Baş Qərargah rəisinin müdafiə naziri olmaq üçün səylər göstərdiyini, faktiki olaraq həmin vaxt müdafiə naziri olan Səfər Əbiyevə qarşı iş apardığını bildirmişdi. Bu açıqlamalardan sonra Mehman Səlimov tutduğu vəzifədən azad edilmişdi.

# Moldovada "ikinci Maydan", yoxsa...

## **Şahin Cəfərli:** "Düşünürəm ki, bu aksiyalarda Avropa İttifaqının müəyyən marağı, hətta dəstəyi də var"



**Xəbər verdiyimiz kimi, sentyabrın 6-da Moldovada kütləvi aksiyalar başlayıb. Təxminən 40 min nəfərin qatıldığı etiraz aksiyasının iştirakçıları ölkənin İqtisadiyyat Bankının bir sıra qurum və şəxslərə verdiyi 1 milyard dolların geri qaytarılmasını tələb edib. Moldova Şərqi Avropanın ən kasıb ölkələrindən biridir, 1 milyard dollar ölkənin ümumdaxili məhsulunun 13 faizini təşkil edir.**

Etirazçılar daha sonra prezidentin istefasını tələb etsələr də, prezident istefa verməyəcəyini bəyan edib. Qeyd edək ki, Moldova bir sıra postsovet respublikaları kimi etnik münaqişədən əziyyət çəkir. Bundan başqa, Moldova Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramının üzvüdür, Aİ ilə assosiasiya sazişi imzalayıb. Bu səbəbdən də Moldovada etirazların başlaması ilk növbədə postsovet qurşağında növbəti ölkədə siyasi münaqişənin başlaması ilə bağlı fikirlərə səbəb oldu. Hətta Moldovada "ikinci Maydan" hadisələrinin başlayacağını ehtimal edənlər də oldu. Həll olunmamış Dnestryanı bölgə kimi ciddi münaqişəsi olan, Şərqi Avropanın ən kasıb və kiçik ölkələrindən (3,5 milyon əhalisi var - K.R.) biri olan Moldovada əslində nə baş verir?

**Siyasi şərhçi Şahin Cəfərlinin fikrincə, Moldovada keçirilən etiraz aksiyalarının Ukraynadakı Maydan fenomeni ilə müqayisə edilməsi doğru deyil. Ekspertə görə, bu hadisələr mahiyyətcə bir-birindən ciddi fərqlənir:** "Ukraynada son Maydan hərəkatı avrointeqrasiya kursundan faktiki imtina edən Yanukoviç hökumətinə qarşı yönəlmişdi və qanlı inqilabla nəticələndi. Moldovada isə hazırda avrointeqrasiya kursunun fəal tərəfdarları, Avropa Birliyi ilə assosiasiya sazişinə imza atan siyasi komanda hakimiyyətdədir. Bu komandaya qarşı etiraza qalxanlar da eyni (və ya çox yaxın) ideoloji-siyasi bazanın təmsilçiləridir və meydanda Avropa Birliyinin bayraqları dalğalanır. Aksiyanı "Ləyaqət və Ədalət" adlı vətəndaş platforması təşkil edib. Bu platformanın tərkibində qərbyönümlü ictimai xadimlər cəmləşib. Onlar növbədənkənar parlament seçkilərinin keçirilməsi, prezidentin istefası kimi siyasi tələblər irəli sürsələr də, etirazların kökündə əsasən sosial-iqtisadi səbəblər dayanır".

**Moldovada əhalinin həyat səviyyəsinin çox aşağı olduğunu xatırladan Ş.Cəfərli deyir ki, etirazçılar hökumətə təzyiq edib iqtisadi islahatları daha da sürətləndirməyi tələb edir:** "Ölkənin 3 kommersiya bankından 1 milyard avronun oğurlanaraq xaricə çıxarılması ilə bağlı bu ilin fevralında ortaya çıxan qalmaqal əhalinin qəzəbinə səbəb olmaqda davam edir. 1 milyard avro 4 milyon əhalisi olan Moldova üçün böyük rəqəmdir və ölkənin Ümumi Daxili Məhsulunun 12,5 faizinə bərabərdir. Cəmiyyət mövcud hökumətin korrupsiya ilə mübarizədə və iqtisadi problemlərin həllində aciz olduğunu düşünür. Eyni zamanda NATO-ya üzvlük tərəfdarı olan "Ləyaqət və Ədalət" platforması Qərbə inteqrasiyanın da düzgün istiqamətdə aparılmadığı fikrindədir və bu səbəblə hökumət dəyişikliyini zəruri sayır. Rumıniya ilə birləşmənin tərəfdarı olan unionistlər də bu platformanı dəstəkləyir. Unionistlər avrointeqrasiyanın kəsə yolu kimi qardaş ölkə ilə birləşməni göstərirlər. Bəllidir ki, Moldova Rumıniya ilə vahid dövlətdə birləşərsə, avtomatik olaraq Avropa Birliyi məkanının bir hissəsinə çevriləcək".

**Ancaq Ş.Cəfərli aksiyalarda Rusiyanın əli olması ilə bağlı iddiaları doğru saymır. O, buna əsas kimi aksiyanın qərbyönlü təşkilatlar tərəfindən hazırlanmasını göstərir:** "Rusiyanın marağı bu ola bilər ki, Moldovada sabitlik pozulsun, xaos yaransın və xalq bunun əsas səbəbi kimi avrointeqrasiyanı görsün, əhali arasında qərbyönlü kursdan məyusluq yaransın. Eyni zamanda Moskva erkən seçkilərin keçirilməsində də maraqlı ola bilər, çünki bu seçkilərdə rusiyayönümlü (və yaxud avrointeqrasiya əleyhdarı olan) siyasi qüvvələrin revanş götürmək şansı yaranacaq".

**Ekspertin fikrincə, bu proseslər Moldovada avropayönlü qüvvələrin hakimiyyətdə daha da möhkəmlənməsinə səbəb olacaq:** "Düşünürəm ki, bu aksiyalarda Avropa İttifaqının müəyyən marağı, hətta dəstəyi də var. Moldovanın siyasi palitrasına nəzər salsaq, görərik ki, qərbyönlü siyasi qüvvələrin əks qüvvələrin *(o cümlədən rusiyayönümlülərin)* gücü, reytinqi bir-birinə çox yaxındır. Son seçkilərdə sosialistlər və kommunistlər birlikdə 38%, avrointeqrasiya tərəfdarı olan siyasi partiyalar isə 46% səs alıb. Yerdə qalan 16%-in arasında da rusiyayönlü qüvvələr var. Hazırda iqtidardan olan qərbyönlü koalisiyanın nüfuzdan düşəcəyi təqdirdə, rusiyayönlülər əsas alternativə çevrilə bilər ki, bu cür siyasi perspektiv Avropa Birliyi ilə ABŞ-ı narahat edir. Bu səbəblə, Qərbin Moldovada yeni bir siyasi alternativ formalaşdırmaq niyyətini və cəhdini qətiyyən istisna etmək olmaz. Düşünürəm ki, hazırkı etiraz aksiyaları bu alternativin ortaya çıxarılması və formalaşdırılması planının tərkib hissəsi ola bilər. Ukraynada avrointeqrasiya kursunun dönməzliyi təmin olundu, artıq orada avrointeqrasiyanı qüvvələrin revanş şansı demək olar ki, qalmayıb. İndi növbə həssas siyasi balansın mövcud olduğu Moldovadadır".

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 201(6229) 11 sentyabr 2015




# İnsan ən böyük hesabatı özü barədə aparmalıdır

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! İnsan ehtiyaclı bir varlıqdır. Həyatın hər bir sahəsində, hər bir vəziyyətində bunu görə bilirik. Bir qədər hərarətin yüksəlməsi ilə insanın vəziyyəti dəyişir. Bir qədər soyuq olanda üşüyür. Yeməyi bir qədər gecikəndə, aclıqdan vəziyyəti dəyişir. Bütün bu vəziyyətlər insana, özünün nə qədər aciz, nə qədər ehtiyaclı varlıq olduğunu düşünmək, dərk etmək üçün imkan verir. Bunlar imkan verir ki, nə qədər kənar amillərdən asılı olduğumuzu dərk edə bilək. Əgər insan bunlar haqda düşünsə, aqibəti xeyirli olar.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Hər gün nəfsinin hesabını aparmaq

**Həzrət İmam Kazım (ə) buyurur:** "Hər gün, gün ərzində nəfsinin hesabını aparmayan kəs bizdən deyil. Əgər yoxlayıb görsə ki, yaxşı əməllər edib - Allahdan onun yaxşı əməllərini bir az da artırmasını istəsin. Əgər görsə ki, pis əməllərə mürtəkib olub - Allahdan bağışlanma diləsin və Ona tərəf qayıtsın".

Hər gün, gün ərzində nəfsinin, varlığının hesabını aparmayan kəs Əhli-beytlə (ə) deyil. Biz gün ərzində özümüzə qayda qoymalıyıq ki, vəziyyətimizi nəzərdən keçirək, halımızı təftiş edək. Bunu etməyimiz gərək əhyalara, başımıza bir iş gələn zamana, bir çətinliyə düşən vaxta qalmasın. Xoş günümüzdə də, çətin günümüzdə də, rahat günümüzdə də özümüzlə Allah arasında gərək ünsiyyət quraq, danışaq. Baxaq ki, gün ərzində necə mövcud olmuşuq. Görsək ki, yaxşı əməllər etmişik, bunların şükrünü edək və Allahdan onların artırılmasını istəyək. İstəyək ki, bizlərə tofiqat versin ki, bu işlərdən yenə görə bilək. Əgər görsək ki, pis əməllərə mürtəkib olmuşuq, tövbə edək və Allaha tərəf qayıdaq. Hər gün bunu etmək lazımdır. İnsan gün ərzində bunu etməyə can atmalıdır.

## İnsanların ən zirəyi və ən nadanı kimdir?

Həzrət Peyğəmbərimiz (s) səhabələrinə buyurur: "Sizə insanların ən zirəyinin və ən nadanının kim olduğunu deyimmi?" Səhabələr deyir: "Bəli, ey Allahın Rəsulu". Həzrət (s) buyurur: "İnsanların ən zirəyi o kəsdir ki, öz nəfsinin hesabını aparsın və ölümdən sonrakı həyatı üçün iş görsün. İnsanların ən axmağı o adamdır ki, öz nəfsinin istəklərinə tabe olur və həmişə Allahdan onun arzularını yerinə yetirməsini tələb edir".

Yəni əziz Peyğəmbərimiz (s) bizlərə zirək insanın keyfiyyətlərini tanıdır. Zirək insan - o insandır ki, öz varlığının, mövcudiyyətinin hesab-kitabını aparır, ölümdən sonrakı həyatını fikirləşir və aqibəti üçün çalışır. Ən axmaq isə o insandır ki, nəfsi istəklərinin və nəfsin arzularının təmini ilə məşğuldur və buna görə də, Rəbbindən yalnız nəfsin arzularının həyata keçməsini istəyir. Deməli, gün ərzində diqqətli olmalıyıq ki, bunlara əhəmiyyət verə bilək.

## Ariflərin tövsiyə etdiyi gündəlik yaşam proqramı

**Əllamə Təbətəbainin (r.ə) çox gözəl bir tövsiyəsi var. Bir nəfər nəfsi istəklərindən qurtulmaq istəyən və gücü çatmayan insan Əllamə Təbətəbaidən (r.ə) kömək istəyir, bununla bağlı müraciət edir. Onun cavabında Əllamə (r.ə) buyurur:** "Qeyd etdiyin mövzuda hədəfə çatmaq müvəffəqiyyətinə nail olmaq üçün sənə güclü iradə lazımdır. Tövbə et. Sonra o tövbəni qoru. Özünlə hesablaş. Hər gün sübh vaxtı yuxudan oyandıqda qarşılaşdığın hər bir əməldə adı Uca olan Allahın razı olduğunu yerinə yetirməyə riayət et. Belə olarsa, yerinə yetirəcəyin hər bir əməlin əvvəlində məqsədin axirət xeyrini ələ gətirmək olacaq. Axirət üçün xeyirli olmayan əməli yerinə yetirməyəcəksən. Beləcə bu hala gecə yatana qədər davam edəcəksən. Yatan zaman 4-5 dəqiqə ərzində gün boyu yerinə yetirdiyin əməlləri xəyalən bir-bir gözünün önündən keçir. Allah razılığına görə yerinə yetirdiyin hər bir əməlin müqabilində şükür et. Bunun əksinə olan hər bir əmələ görə istiğfar et. Bunu mütəmadi olaraq hər gün yerinə yetir. Bu iş çətin və nəfsə acı görünsə də, xilas olmağın açarıdır".

Nəfsi istəklərə qalib gəlib mənəvi təkamülə çatmaq, Allaha tərəf hərəkət etmək üçün insana güclü iradə lazımdır. Güclü iradəsiz bu, baş tuta bilməz. Ardınca böyük ustad bir sıra sadə məsələləri sayır. Əgər insan əməl etsə, xoş aqibətə çata bilər. Güclü iradəyə sahib olmaq üçün ilk öncə tövbə etmək və onu qorumaq tövsiyə edilir. Çalışmalıyıq ki, sübhdən başlayaraq qarşıya çıxan müxtəlif məsələlərdə, addım və hərəkətlərdə Allahın razılığına uyğun olaraq davranaq. Yemək yeyəndə Allahın razılığını düşünək, su içərkən Allahın razılığını düşünək, insanlarla ünsiyyətdə olan zaman Allahın razılığını düşünək. Hər bir məsələdə buna riayət edək. İnternetə, sosial şəbəkələrə daxil olanda Allahın razılığını düşünək. Televizora baxanda Allahın razılığını düşünək. Belə olarsa, bütün işlərimizin hədəfi axirət və aqibət olacaq.

Daha sonra tövsiyə edir ki, yatmazdan öncə 4-5 dəqiqə ərzində gün ərzində etdiklərimizi düşünək, yada salaq, gözümüzü qarşısından keçirək. Gözümüzün qarşısından keçirən zaman əgər o əməli Allahın razılığı üçün etdiyimizi görsək, onun üçün şükür edək. Bunun əskinə olan hər bir əməl üçün isə tövbə etməliyik. Bizim bu dünyadakı xilasımız, nəfsi istəklərimizdən qurtulmağımızın yolu bundadır.

Allah-Təala bizlərə bu kimi tövsiyələri əməllərimizdə yaşatmağı nəsib etsin. Əgər əməl etsək, aqibətlərimiz xeyirli olar. Əməl etməsək, bu dünyanın bataqlığında, qaranlığında məhv olub gedərik.

## Nəfsin istəklərinə sürükləyən qıcıqlar artıb

Yaşadığımız dünyada məşğuliyyətlər xeyli artıb. İnsanı özündən ayıran, özünü xatırlamadan, kimliyini düşünməkdən ayıran qıcıqlar fövqəl dərəcədə çoxalıb. İnsan üçün Allah bəndəsi kimi yaşamaq fövqəl dərəcədə çətinləşib. Əsas səbəblərdən biri də budur ki, insan səhərdən axşama qədər onu unutduran, onu qəflətə aparan qıcıqlar alır. Yüz il, hətta əlli il əvvəl insanın həyatı, məşğuliyyətləri bəlli bir hüdudlarda, məhdudiyyətlərdə idi. Sözsüz ki, o dövrün öz sınaqları, öz imtahanları, özünün çətinlikləri var idi. Günümüzdə insanın inkişaf üçün, tərəqqi, mənəvi təkamül üçün imkanları nə qədər artıbsa, deyə bilərik ki, bir o qədər də azması, büdrəməsi, yıxılması, özünü itirməsi, qəflətə düşməsi üçün də fürsətlər çoxalıb. Əgər insan diqqət etməsə, bu bataqlığın içərisində birdəfəlik məhv olub gedər.

Çünki həm texnolojinin, xüsusən də internetin inkişafı ilə, həm insanın əldə edə biləcəyi qıcıqların artması ilə insanın özü ilə, Allahı ilə olması üçün, özü ilə hesab-kitab etməsi üçün vaxt ayırması çətinləşib. Demək olar ki, insanın xüsusi iradə göstərdiyi təqdirdə adətən özü ilə məşğul olmağa vaxt tapması çətin olur. İnsan diqqətli olmasa, bir də ayılar ki, günlər, həftələr keçir, başı yaman qarışıb. Əgər insan özünü məşğul etmək istəsə, o, bir də ayılar ki, özündən başqa hər şeylə məşğuldur.

Əgər bu halda olsaq ki, özümüzü, kimliyimizi unutmuş olsaq - vəziyyətimiz ağır, aqibətimiz çox acı olar.

## Allahın sevdiyi kəs və üz çevirdiyi kəs

**Həzrət Əmirəlmöminin İmam Əli (ə) buyurur:** "Elə ki, gördün pak olan Allah Öz zikrini sənin qəlbinə salıb, yəqin bil ki, O, səni sevir. Elə ki, gördün sənin qəlbini Öz yaratdıqları ilə məşğul edib və Öz zikrindən ayırıb - bil ki, səndən üz döndərib".

Əgər insan öz daxilində Allahın hüzurunda olduğunu hiss edirsə, Allahı xatırlayırsa, Allaha bəndə olmaq istəyirsə, əgər insanın ruhiyyəsi yuxarı, ali, gözəldirsə, bununla yaşayırsa, hər addımında, hər davranışında, hər hərəkətində Allahı düşünürsə - xoş olsun onun halına. Bilsin ki, Allah ona inayət edib, Öz lütfünü hədiyyə edib. Bilsin ki, Allah onu sevib. Təbii ki, bu sevgini qazanmaq üçün də bir işlər görüb ki, bu sevgini qazana bilib.

Amma insan birdən ayılıb, diqqət etsə ki, bütün məşğuliyyətləri dünyanın məsələ və mövzularıdır və o, Allahı xatırlamır, Allahın razılığı onun üçün önəmli deyil, gündəlik qaçaqaç onun üçün ən maraqlısıdır - vay olsun onun halına. Dünya müxtəlif formalarda bu insanın qarşısına çıxar və onu məşğul edər. Kimisini madiyyatla, kimisini isə maddi görsənməyən məsələlərlə məşğul edər.

Bəzən baxarsan ki, zahirən maddi bir məsələ dalınca deyilsən. Amma diqqətlə baxsan, niyyət Allaha xatir olmadığına görə zahirən normal bir şey kimi görünən məsələ əslində aqibət üçün səmərəsiz olar. Onun üçün sərf etdiyin zamanlar, imkanlar aqibət üçün xeyirli olmaz. İnsanın çəkinəcəyi məsələ bu olmalıdır ki, din yalnız dillərində yaşamış olmasın. Din bir şüara çevrilməsin. Müsibətlər o zaman başlayır ki, etiqad şüarçılıqla əvəzlənir.

Qiyamətdə hər bir kəsin öz sorğusu var. Hər birimizi qəbrə ayrı-ayrılıqda qoyacaqlar. İnsan gərək öz halına özü diqqət etsin. Elə ki, gördü qəlbi Allaha ibadətə, Allaha itaətə deyil, özü və başqaları üçün yaşamağa tərəf yönəlib, bilsin ki, nəinki o, Rəbbindən üz döndərib, əslində Rəbbi ondan üz döndərib. Bu vəziyyətin səbəbi bizim özümüzdədir. Bizlər nələrsə edirik ki, nəticədə Rəbbimiz bizdən üz döndərir. Əgər dünya ilə bir vasitə kimi, axirət üçün bir tarla, əkin sahəsi kimi deyil, hədəf kimi məşğul olsaq, Allahı unutsaq - qəflətin ən ağır mərhələsində olarıq.

Qəflətin ən ağır mərhələsi budur ki, insan elə zənn edər ki, sanki hər şey qaydasındadır. Bundan ağır qəflət ola bilməz. Bir var ki, insan öz halına baxır, halından narazıdır. Öz həyatını qaydaya sala bilməməsindən, doğru-dürüst yaşaya bilməməsindən narahat olur. Bir də var ki, insan çox əla həyat yaşadığını, heç bir sıxıntı və çətinliyin olmamasını düşünür, özünün islahı barədə isə ümumiyyətlə, düşünmür.

## Qəlbin islahı - Allahı yad etmədədir

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Qəlbin islah olmasının və təmizlənməsinin kökü, onun Allahı yad etməsindədir". Bizim qəlblərimizin islahı, sağalması, düzəlməsi - Allahı xatırlamadan keçir. Bundan effektiv vasitə yoxdur. Allahı xatırlamaq, Allahı yad etməklə qəlbimizi sağalda bilərik.

Deməli, nə qədər ki, bizlər unutqan vəziyyətindəyik, Allahı xatırlamırıq, işlərimizdə Allahın razılığını düşünmürük, qəflətdəyik - bir o qədər də qəlbimiz xəstə, mərəz vəziyyətdə olacaq. Təbii ki, xəstə qəlbin məhsulları da buna adekvat məsələlər olacaq. Belə qəlb yalnız nəfsin istəkləri ilə məşğul olacaq. O şeylər ki, nəfsi onları istəyir, onlara can atır - insan onları edəcək. Deməli, qəlbi qidalandırmanın, təmizləmənin, islahın yolu - Allahı xatırlamadan keçir. Əgər Allahı xatırlama olmasa, qəlb xəstələnər və nəticə etibarilə, ölər.

## Allahı yad etmək qəlbi dirildər, əqlə işıq verər

**Həzrət Əli (ə) buyurur:** "Kim pak olan Allahı yad edərsə, Allah-Təala onun qəlbini diriltdər, əqlini və düşüncəsini işıqlandırar". Deməli, Allahı xatırlamaq, yad etmək, əməl və davranışlarımızda Allahın razılığını düşünmək, Allahın hüzurunda olduğumuza diqqət etmək - qəlbimizdə dirilik yaradar.

Ümumiyyətlə, mövcudiyyətimiz, yaşayışımız bununla başlayır. Bu dirilmənin nəticəsində də düşüncəmizə, əqlimizə bir işıq gələr. Düzgün təhlillər, düzgün təsbitlər etmiş olarıq. Halımıza, vəziyyətimizə, durumumuza düzgün nəzər salmış olarıq. Amma, qəlb sağlam olmasa, düşüncələr nəticə olaraq qaranlıqda olsa, özümüzü uçuruma apararıq.

O zaman ki, müsəlman toplumlarında kişilər rahatlıq, rahat yaşayış axtardılar və bunları hədəf seçdilər - ümmətin vəziyyəti xeyli geriyə getmiş olar. İnsan qəflətdə olsa böyük faciələr, mənəvi durğunluqlar, səhvlər baş verər. Peyğəmbərlərin (ə), Məsumların (ə), övliyaların missiyası elə bu olub ki, toplumları qəflətdən çıxarsınlar. Biz çalışmalıyıq ki, həyatımızı qəflətə doğru çevirməyək.

**Allahım, aqibətlərimizi xeyirli et!**

**Allahım bizə hər günümüzdə yaşadıqlarımız barədə düşünməyi nəsib et!**

**Allahım, bizləri Öz lütf dairəndən kənara buraxma! Amin!**

YENİ MÜSAVAT
N 201 (6229) 11 sentyabr 2015

# İlan zəhəri büdcəni zənginləşdirə bilər

## Sovet dövründə qabaqcıl olmuş bu sahəni Azərbaycanda bərpa etməyin zamanı çatıb

**Ölkədə zəhər biznesi bərpa ediləcək. Azərbaycan Milli Elmlər Akademiyası Zoologiya İnstitutunun yaydığı məlumata görə, institutda gürzə, əqrəb, qurbağa, arı zəhərinin alınması yönündə işlərə başlanılıb.**



İnstitut Kür-Araz və Qobustan ərazilərində yaşayan gürzələrdən xammal kimi istifadə etməklə il ərzində 2 kq-a qədər zəhər əldə edib xaricə satışını təşkil etməyi düşünür. Həmçinin institut quru qurbağaların və əqrəblərin xüsusi iki növündən istifadə edərək çox qiymətli zəhər məhsulu əldə etmək istəyir.

Qeyd edək ki, vaxtilə SSRİ məkanında Azərbaycan ilan zəhəri istehsalına görə lider ölkə hesab edilirdi. 70-ci illərdə Bakının Zirə kəndində ilan zəhəri istehsal etmək üçün fəaliyyət göstərən Herpetoloji Kombinat SSRİ-nin müxtəlif əczaçılıq zavodlarına hər il olduqca yüksək qiymətə zəhər idxal edirdi. Həmin zəhərdən müxtəlif farmakoloji kombinatlarda dərman preparatlarının hazırlanmasında istifadə olunub.

Məlumata görə, kombinat dünya üzrə gürzə zəhərinin 70 %-ni istehsal edirmiş. Təkcə Tallindəki zavoda hər il 3 kq quru gürzə zəhəri göndərilirdi. Həmin dövrdə çoxlu xammal əldə etmək üçün hökumət ilanı tutub təhvil verənlərə xüsusi həvəsləndirici mükafat da verirdi.

SSRİ-nin süqutundan sonra kombinat tamamilə dağıldı. Lakin buna baxmayaraq, bu günəcən qeyri-qanuni yollarla da olsa ilan zəhərinin istehsalı ilə məşğul olan brakonyerlər fəaliyyət göstərir. Onların ovladığı ilanların sayının yüzdən çox olduğu bildirilir. Nəticədə təbii ilan ehtiyatı azalmağa başlayıb.

Son məlumatlara görə, dünya bazarında bir qram ilan zəhərinin qiyməti təxminən 1000 dollardan yuxarıdır. Bu da onu deməyə əsas verir ki, qeyri-neft sektoruna daxil olan ilan zəhəri biznesi istənilən ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Bəs görəsən, Azərbaycanda manatın devalvasiyasından sonra bu yöndə addımlar atılsa, büdcə nə qədər qazanar?

**İqtisadçı ekspert Vüqar Bayramova görə, sözügedən sektor ənənəvi olduğu üçün onun bərpası mümkündür:** "Nəticədə ölkə daxilində və xaricdə müəyyən dərman preparatları üçün xammal əldə ediləcək. Xüsusən də son illər MDB ölkələrində ilan zəhərinə böyük ehtiyac var. Bu baxımdan bu sektor bərpa edilərsə, dövlət büdcəsinə xeyli gəlir daxil olar. Ən əsası yeni iş yerləri yaranar, məşğuliyyət artar".

**Zəhərlərin müalicəvi əhəmiyyətinə gəlincə, tibb elmləri doktoru, professor Adil Qeybulla bunları dedi:** "Dünyada, o cümlədən ölkəmizdə ilan zəhəri strateji əhəmiyyətə malikdir. İlan vurma zamanı işlədilən zərdab ilan zəhərindən hazırlanır. O cümlədən bir sıra dərman preparatlarında ilan zəhərindən istifadə edilir. Xüsusən insan orqanizmində baş verən duzlaşma və revmatizm kimi xəstəlikərin müalicəsində əvəzedilməz effekt göstərir".

**Professor əqrəb, qurbağa, arı zəhəri barədə də məlumat verdi:** "Həmin canlıların da zəhərindən istifadə edilir. Lakin Azərbaycanda bu cür zəhərlərdən istifadə o qədər də geniş yayılmayıb. Daha çox müəyyən dərman preparatlarının hazırlanmasında istifadə edilir".

❑ Xalidə GƏRAY




# "Gəncəbank" rəhbərinə qarşı daha bir məhkəmə davası açılır

**"Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın Natalya Kərimovaya məxsus əmlakları özününküləşdirməsi haqda yazmışdıq. Belə əmlaklardan biri də Natalya Kərimovanın mənzili olub. P.Novruzovanın təhdidləri ilə üz-üzə qalan N.Kərimova Azərbaycanı tərk edəndən 5 il sonra "Gəncəbank" rəhbəri Kəpəz Rayon Məhkəməsinə müraciət edib. İddiasında göstərib ki, N.Kərimova ondan 30 min dollar borc alıb və qaytara bilmir. Məhkəmədən xahiş edib ki, borcun əvəzinə N.Kərimovanın Gəncədəki mənzilinin onun adına rəsmiləşdirilməsi haqda qətnamə çıxarılsın. 2006-cı ildə baş tutan prosesdə P.Novruzovanın iddiası təmin olunub.**

N.Kərimovanın vəkili Əziz Qənbərov qəzetimizə açıqlamasında deyib ki, həmin qətnamə saxta şahidlərin ifadələri əsasında çıxarılıb: "Natalya Kərimova Pərvanə Novruzovanın təqiblərinə görə uzun illər ölkə xaricində yaşayıb. Bu illər ərzində ölkəyə qayıda bilməyib. Azərbaycanda aparılan ardıcıl islahatlar Natalya Kərimovanın ölkəyə dönərək qanunlara uyğun şəkildə ondan zorakılıqla alınan əmlakları ilə bağlı məhkəmələrdə dava açmağına imkan verib. Biz Natalya Kərimovanın mənzilinin qanunsuzluqla Pərvanə Novruzovanın adına keçirilməsi haqda qətnamədən apelyasiya şikayəti vermişik. Həmin qətnamə saxta şahidlərin ifadələrinə əsaslanır. Ortada borc müqaviləsi də yoxdur. Sentyabrın 11-də Gəncə Apelyasiya Məhkəməsində hakim Azər Bayramovun sədrliyi ilə şikayətə baxılacaq. İnanırıq ki, həmin qətnamə qanunsuz və əsassız olduğuna görə ləğv olunacaq, haqq-ədalət bərpa ediləcək".

Qeyd edək ki, P.Novruzova N.Kərimovanın digər bir mənzilini, hazırda "Afrodita" adlanan, faktiki isə adı "Nataşa" olan gözəllik salonunu da özününküləşdirib. Bu məsələlərlə bağlı da məhkəmə davaları açılıb.

❑ E.MƏMMƏDƏLİYEV



# Həbsxanada məhbus məhbusu öldürdü

**Cəzaçəkmə müəssisəsində qətl hadisəsi baş verib. Ədliyyə Nazirliyi Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, 2 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən Famil Hüseynovla digər məhkum Həsən Əliyev arasında mübahisə baş verib.**

Nəticədə F. Hüseynov yeməkxanadan götürdüyü bıçaqla H. Əliyevi bıçaqlayaraq qətlə yetirib. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**18.06.1996-cı il təvəllüdlü Aysel İsmayılova Balakişi qızının adına olan şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# YENİ MÜSAVAT

Son səhifə

N 201 (6229) 11 sentyabr 2015




## Bir-birilərini sevən qocalar ulduza döndülər

**Hava limanında əlində çiçək gözləyən yaşlı kişi onu kənardan smartfonla çəkən qarını görmürdü. Bir qədər keçdi, təyyarədən düşən sərnişinlər terminala daxil olmağa başladılar.**

Yaşlı kişi ahıl qadını görəndə onu qucaqladı, öpdü və əlindəki çiçək dəstəsini verdi.

Los-Anceles şəhərinin beynəlxalq hava limanındakı bu səhnə o qədər xoş, o qədər səmimi idi ki, smartfonla çəkilmiş qısamüddətli video YouTube-da yerləşdiriləndən sonra ona 60 milyondan artıq insan baxdı və bir-birilərini sevən qocalar dünyada məşhurlaşdılar. Milli.az “Inside Edition”a istinadən bildirir ki, hava limanında əlində çiçək duran 80 yaşlı amerikalı Berni Mills, onun qarşıladığı qadın isə xanımı, 75 yaşlı Kerol idi. Onlar 2010-cu ildə “eHarmony” saytında tanış olmuş, evlənmişdilər. Berninin xanımı, Kerolun isə əri vəfat etmişdi.

“Hər birimiz əvvəlki nikahda 50 il olandan sonra evləndik. Son 5 ildə ilk dəfə idi ki, uzun müddət ayrı qaldıq. Bu səbəbdən də hava limanında görüşümüz çox səmimi idi”, - Kerol deyib. Sosial şəbəkələrdə Berni Millsi “əsl centlmen” adlandırıblar.

## Keçmiş prezidentin evi satışa çıxarıldı

**Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviçin evi satışa çıxarılıb. Teleqraf.com unian.net-ə istinadən xəbər verir ki, paytaxt Kiyevdə yerləşən malikanəyə 1,3 milyon dollar qiymət qoyulub. Təmirə ehtiyacı olduğu üçün evin ucuz qiymətə satılacağı bildirilib.**





## Dünyanın ən ucuz və gözəl ölkələri



**Dünyanın ən ucuz və gözəl ölkələrinin adı açıqlanıb. Teleqraf.com-a istinadən həmin ölkələri təqdim edirik:**

**1. İndoneziya** - İndoneziya yaşamaq üçün çox rahat ölkədir. Burada yeməklərin qiyməti 1 dollardan belə ucuzdur. Ölkədə ayda 150 dollar xərcləməklə rahat yaşamaq olar.

**2. Kamboca** - az məbləğdə pulla səyahət edə biləcəyiniz yerlərdəndir. Burada 5 dollara balıqçılar tutduqları təzə dəniz məhsullarından sizə istədiyiniz yeməyi bişirə bilərlər. Dəniz məhsulları 1-2 dollar dəyərindədir.

**3. Vyetnam** - özünün geniş ərazini əhatə edən tropik meşələri ilə məşhurdur. Bu ölkə həmçinin dalğıcların sevimli məkanlarındandır. Vyetnamda aylığı 150-200 dollara ev tapmaq olar.

**4. Laos** - Cənub-Şərqi Asiyada yerləşir. Özünün dağları, buddist monastrları və çayları ilə məşhurdur. Gündəlik yemək xərciniz 1-5 dollar arası təşkil edə bilər.

**5. Tailand** - turistlər arasında məşhur yer olsa da, digər Asiya ölkələrində qiymətlər bir qədər bahadır. Evlərin aylıq kirayə haqqı 160-320 dollar arasında dəyişir. Yeməkləri isə 1-3 dollara sifariş vermək olar. Motosiklet icarəyə götürmək istəsəniz, bu, aya sizə 63-80 dollara başa gələcək.

**6. Hindistan** - əhalisinin çox olması, Tac-Mahal, məşhur mağaraları, məbədləri və müqəddəs yerləri ilə tanınır. Həmçinin yaşamaq üçün iqtisadi cəhətdən sərfəli yerdir. Burada iki nəfərlik evlərin aylıq icarə haqqı 100-110 dollara başa gəlir.

**7. Çin** - öz rəngarəngliyi, kənd təsərrüfatı və mənzərələri ilə seçilir. Ölkə böyük olmasına baxmayaraq, bir şəhərdən digərinə çox asan şəkildə getmək olar. Yeməklərin qiyməti isə 2 dollardan baha başa gəlməyəcək.

**8. Nikaraqua** - qənaətlə yaşamaq istəyənlər üçün əsl cənnətdir. Bu ölkədə yeməkdən başlayaraq ev kirayəsinə qədər hər şey çox ucuzdur. 1000 dollar sizə burda iki nəfərlik ev tutmağa, qulluqçu saxlamağa, hesabları, yemək pulunu ödəməyə, hətta kinoya və gəzməyə getməyə belə bəs edər.

**9. Peru** - Ölkənin ərazisi böyük olduğuna görə qiymətlər də regionlara münasib dəyişir. Lima şəhərində 5 dollar sizə yemək üçün bəs etdiyi halda regionlarda bu, 1-2 dollara başa gəlir.

**10. Albaniya** - ölkənin cənubu sakit həyat yaşamaq üçün çox gözəl yerdir. Aralıq dənizi sahilində yerləşən Albaniyada qiymətlər Yunanıstan, İtaliya və Xorvatiya ilə müqayisədə daha ucuzdur. Burada evlərin kirayə haqqı 100-120 dollar arasında dəyişir.

## Qoroskop




**QOÇ** - Astroloji göstəricilər bu təqvimi daha çox münasibətlərin tənzimlənməsinə yönəltməyi tövsiyə edir. Hətta buna görə fəaliyyətə də ara vermək olar. Axşam qonaq getməyə dəyər.

**BUĞA** - Ulduzlar bir neçə gərgin situasiya ilə rastlaşacağınızı bildirir. Bu sətirləri ona görə yazırıq ki, qarşısını alasınız. Çətin də olsa, təmkin göstərin, oturaq işlərə aludə olun.

**ƏKİZLƏR** - Neçə vaxtdan bəri donub qalan planları həyata keçirmək üçün bu təqvimdən maksimum yararlanın. Bu istiqamətdə ümid etdiyiniz və gücü çatan adamlara da müraciət edə bilərsiniz.

**XƏRÇƏNG** - Atalarımızın dediyi “işim daşdan çıxır” ifadəsi bu təqvimdə sizin bürcə daha çox uyğun olacaq. Odur ki, daşdan iş çıxarmaqdansa, istirahətə üstünlük verin. Mübahisələrdən isə qaçın.

**ŞİR** - Mənfi yüklü Ayın bürcünüzdə mövcud olması səhhətinizə mənfi təsir göstərə bilər. Lakin bu fəsadın fəaliyyət prinsipinə və ya iş planınıza hər hansı maneəsi olmayacaq. Əksinə, gücünüzü ortalığa qoyun.

**QIZ** - Analitik zəkanızı işə salın. Nə qədər enerjiniz var, hamısını fəaliyyətə yönəldin. Sədaqətli və təcrübəli insanları özünüzdən uzaqlaşdırmayın. Bu gün uzaq yola çıxmayın.

**TƏRƏZİ** - İlin-günün bu vaxtında romantik duyğulara qapılmaq sizə yalnız zərər verə bilər. Şairanə düşünməkdənsə reallığa uyğun addım atın ki, uğurlarınız yaxınlaşsın. Səhhətinizi də qoruyun.

**ƏQRƏB** - Nəhayət ki, neçə aydan bəri ora-bura vurnuxmağınız öz nəticəsini verməyə başlayır. Odur ki, hər cür dedi-qodudan, cəfəng söhbətlərdən uzaqlaşıb perspektivli işlərlə məşğul olun.

**OXATAN** - Ötən günlərdəki tövsiyəmizi bu günə də şamil edirik: ətrafınızda olanlarla qərəzsiz davranın. Əks halda, tənhalığa mübtəla ola bilərsiniz. Axşam bir neçə yenilik gözlənilir.

**OĞLAQ** - Qarşınızda duran bu təqvimi daha çox neytral şəkildə başa vurmağa çalışın. Riskə ehtiyac yoxdur. Yaxşı olar ki, maddi sıxıntılarınızı aradan qaldırmağın yollarını tapasınız.

**SUTÖKƏN** - “Dünya həyatı bir körpüdür, bu körpünü təmir etməyə vaxt itirməyin, sadəcə tez ötüb keçin!” Peyğəmbərimizin (s) bu sözlərinə əməl edin. Dünyanı düzəltmək sizlik deyil.

**BALIQLAR** - Ümumi mənzərə neqativ deyil. Bu isə nəzərdə tutduğunuz işləri normal şəkildə başa çatdıracağınızdan xəbər verir. Tənbəllik etməyin, yeni işgüzar əlaqələrə həvəs göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dostunu öldürüb yasına gəldi



**Türkiyədə səs-küylü qətlin üstü açılıb. Teleqraf.com Türkiyə mətbuatına istinadən xəbərir ki, Adanada yaşayan 51 yaşlı Cumalı Dokuz dostu 34 yaşlı Seyidxan Dağı öldürüb. Seyidxanın cəsədi yerli camaat tərəfindən meşədə aşkar olunub. Axtarışlara başlayan polis cinayətin Cumalı Dokuz tərəfindən törədildiyini müəyyən edib. Həbs edilən Cumalı ifadəsində dostuna 23 min lirə (təxminən 7900 manat) borcu olduğu üçün onu öldürdüyünü deyib. O, hətta mərhumun yasında iştirak edərək başsağlığı da verib. Televiziyaya çıxan Cumalı dostunun qatilinin tapılmasını istədiyini də bildirib. Məhkəmə borca görə dostunu öldürən Cumalı Dokuza ömürlük həbs cəzası verib.**

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300